www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 mart 2019-cu il Bazar ertəsi № 61 (7231) Qiyməti 60 qəpik

**Xəbər**

## Göyçayda məktəb direktoru qəfildən öldü

yazısı səh.14-də

# PREZİDENTİN TARİXİ ƏFVİ - İKİ ƏLİ VƏ İKİƏLLİ AZADLIĞA ÇIXANLAR...

Prezident İlham Əliyevin siyasi opponentlərini, hakimiyyət tənqidçilərini vaxtından əvvəl həbsdən azad etdiyi ilk dəfə deyil və son da olmayacaq; amma ilk dəfədir ki, 50-yə yaxın siyasiləşmiş dustaq bir əfv sərəncamı ilə azadlığa buraxılıb; dövlət başçısı siyasi cameənin, hüquq müdafiə təşkilatlarının, vətəndaş cəmiyyətinin ondan gözlədiyi jesti etdi və bundan sonrası...




yazısı səh.3-də

**Gündəm**

## Arif Əsgərovun adı hallanan 30 milyonluq dələduzluq işi yenidən məhkəmədə



Sabiq nazir müavininin baldızı üsyan etdi; ortada 20-30 milyon pulun qara mühasibatlıq hesabatı var!..

yazısı səh.6-da

## Liderlərin gözlənilən kritik görüşü, iflas olan "format oyunu"

yazısı səh.9-da

## İcra başçısı konserv zavodunun 150 səhmdarını çölə atdırıb - reportaj

yazısı səh.10-da

## Siyasi münasibətlərdə yeni mərhələ: iqtidar-müxalifət dialoqu gündəmə gəlir

yazısı səh.5-də

## YAP gəlirlərini açıqladı, bəs parlamentdən kənardakı partiyalar?

yazısı səh.11-də

## Xristian terror törədəndə "dəli" deyirlər, müsəlman törədəndə terrorçu - Qərbin "ikili standart"ı

yazısı səh.15-də

## Həmsədrlərin 3 prinsipi - Azərbaycan üçün tələ, yoxsa...

yazısı səh.11-də

## Novruz günləri düzgün necə qidalanmalı, risk altında olanlar oxusunlar

yazısı səh.14-də

## "Tənqidlərimi bildirəndə məni "xalq düşməni" etdilər" - azərbaycanlı xoreoqrafla söhbət

yazısı səh.13-də

*İlahiyyatçı:*

## "Məsciddə ibadət zamanı öldürülənlər şəhiddirlər"

yazısı səh.14-də

# ABŞ-dan "vur!" izni, Bakının müharibə haqqı

Okeanın o tayından verilən incə mesaj; 2019 konfliktin həllində "qırılma ili" ola bilər; işğalçını sülhə məcburetmə ssenariləri masa üzərində...

yazısı səh.8-də



## İlham Əliyevin inqilabı - Rauf Arifoğlunun yazısı

yazısı səh.4-də



*Əli İnsanov:*

## "Ölkədən və siyasətdən getməyəcəyəm"

yazısı səh.3-də



*Fazil Mustafa:*

## "Azərbaycan insanının qarşısından mənasız manеələr götürülsə..."

yazısı səh.7-də



## Feysbukun "ikili standartı" - müsəlman qətliamının canlı yayımına niyə icazə verdi?

**Yeni Zelandiyada iki məsciddə 49 nəfəri qətlə yetirən terrorçu Brenton Tarrant öz qanlı aksiyasını Feysbuk üzərindən canlı yayımlamışdı. Musavat.com teleqraf.com-a istinadən xəbər verir ki, hadisə baş verən vaxt bundan Feysbuk rəhbərliyinin yox, ilk olaraq Yeni Zelandiya polisinin xəbər tutması etirazlara səbəb olub.**

Bundan əvvəl isə terrorçu Tvitter hesabında qətliamda istifadə etdiyi silahlardan birinin fotosunu paylaşmışdı. Silahın üzərində müsəlmanlara qarşı olan kəskin və təhdidedici qeydlər vardı. Qətliam baş verməmişdən əvvəl Tarrant Tvitterdə müsəlmanlara qarşı 63 paylaşım etmişdi və terror aktı törədəcəyinin anonsunu vermişdi. Fevral ayında Tvitterdə hesabı da bu məqsədlə açmışdı.

Brenton Tarrantın islam əleyhinə aktiv fəaliyyət göstərdiyi əsas sosial şəbəkə saytı isə "Politically incorrect" adlı internet saytı idi. Terror baş verən andan bir neçə saat əvvəl həmin sosial şəbəkədə "İşğalçılara (müsəlmanlara) hücum edib, Feysbukda canlı yayımlayacağam" mesajını paylaşmışdı. Yalnız hadisə baş verdikdən qısa müddət sonra Brenton Tarrantın Tvitter və Feysbuk hesabları ləğv edildi.

Feysbuk isə hadisə baş verən vaxt təcili olaraq, Yeni Zelandiya polisinə xəbərdarlıq etdiyini iddia edib: "Canlı yayım başlamazdan qısa müddət sonra polisə xəbərdarlıq etdik. Biz də sürətli şəkildə təcavüzkarın hesabını dondurduq".

Lakin hadisənin Brenton Tarrantın canlı yayıma çıxdığı bu sosial şəbəkənin yox, ilk olaraq polis tərəfindən təsbit edilməsi isə şübhəli suallar yaradıb. Terrorçunun hesablarının qətliam baş verdikdən sonra ləğv edilməsi isə müzakirələri bir qədər də qızışdırıb.

Qeyd edək ki, martın 15-də Yeni Zelandiyada baş vermiş müsəlman qətliamı Feysbuk üzərindən canlı yayımlanmışdı. Yerli saatla 13.40-da başlayan yayımda terrorçu avtomobillə məscidə doğru irəliləyəndə maqnitofonda müsəlmanlar əleyhinə yazılmış "Remove Kebab" adlı marş səslənirdi. Terrorçu avtomobilini Kristçerç şəhərində yerləşən Hagli Park adlı ərazidə saxlayır və silahlarını nümayiş etdirir. Üzərində adlar və şüarlar yazılan silahlardan birini götürərək məscidə doğru irəliləyir və qarşısına çıxan müsəlmanların hamısını qətlə yetirir.

Canlı yayım 20-ci dəqiqəsində kəsilir, saat 15:00-da isə terrorçu Brenton Tarrant saxlanılır. Lakin canlı yayıma icazə verdiyi üçün Feysbuk rəhbərliyi kəskin etirazlarla qarşılaşır. Çünki qətliam baş verdikdən sonra da həmin video-görüntünü Feysbukla yanaşı, İnstaqram və Yutub sosial şəbəkələrindən əldə etmək mümkün idi. Amerikalı senatorlar Kori Buker və Mark Varner sosial media şirkətlərini görüntülərin aradan götürülməsində gecikdikləri üçün sərt şəkildə tənqid ediblər.

Abunə daha sərfəlidir - **"Yeni Müsavat" abunə** kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**

# Emin Milli İlham Əliyevə təşəkkür elədi - sensasion yazı

**Siyasi mühacir, Meydan.tv layihəsinin əsas siması olan Emin Milli facebookda bir yazı paylaşıb. "Yeni Müsavat" əhəmiyyətini nəzərə alaraq, həmin yazını təqdim edir:**

"İlham Əliyevi hər zaman tənqid edən bir vətəndaş kimi, bu gün ona xüsusi təşəkkürümü bildirmək istəyirəm. Bizim mübarizəmizin, ictimai fikrin böyük rolu var, amma Əliyevin son addımları və bu addımı da onun özünün cəsarətli qərarlarıdır. Demokratik ölkələrdə hər zaman ictimaiyyətin fikri nəzərə alınır və heç bir prezident buna diqqət ayırdığı üçün zəif, gücsüz hesab edilmir.



Azərbaycanda 127 siyasi məhbus var. Onların günahsız həbsə atıldığı istər ölkə ictimaiyyətinə, istərsə də beynəlxalq aləmə bəllidir. Hesab edirəm ki, bu gün onların bir qisminin azad edilməsi zəifliyin deyil, məhz real siyasi gücün və özünə əminliyin nümayişidir.

100-150 insanı həbsdə saxlamaqla nə hakimiyyət alınır, nə də itirilir. İlham Əliyevi dəvət edirəm bu siyasi xətti davam etdirsin və Azərbaycanı yavaş-yavaş real islahatlara doğru aparsın. Çox istəyərdim ki, Azərbaycana qayıdım və İlham Əliyevdən belə real islahatlar haqqında Meydan TV-də canlı müsahibə alım. İlham Əliyev bunları etsə, həm ölkədə, həm də dünyada çox pozitiv, güclü, qorxmaz və maraqlı bir lider kimi böyük rəğbət qazanar və bütün Azərbaycanı irəliyə aparar.

İlham Əliyev 16 ildir hakimiyyətdədir. Ancaq indi, məhz hakimiyyətinin 16-cı ilində baş verən bu dəyişikliklər onun hakimiyyətini daha da möhkəmləndə bilər.

Mən siyasətçi deyiləm və mənim üçün kimin hakimiyyətdə olması yox, ölkənin necə idarə olunması daha vacibdir. Hər zaman düzü təriflәyib, səhvi göstərən biri kimi bu gün İlham Əliyevi ictimai fikrə önəm verərək, belə bir addım atdığı üçün təbrik edirəm. İnanıram ki, bir gün o Meydan TV-də müsahibə verəcək və tariximizdə yeni bir mərhələnin gəldiyini bəyan edəcək.

Düşünə bilərsiz ki, mən xəyalpərəstəm. Ola bilər. Amma mən səmimi inanıram ki, hər kəs dəyişə bilər və ətrafını da müsbət istiqamətdə dəyişdirər. Davamı gəlsin".



## Bu gün Bakıda güclü külək əsəcək

**Bu gün ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Səhər və axşam bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 4-6° isti, gündüz 7-10° isti, Bakıda gecə 4-6° isti, gündüz 7-9° isti təşkil edəcək. Atmosfer təzyiqi 756 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 % olacaq.**

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı ehtimalı var. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-7° isti, gündüz 9-14° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-7° isti təşkil edəcək.



## Şeyx kimlərin əfvi üçün müraciət edibmiş?

**Prezident İlham Əliyevin srağagün imzaladığı əfv sərəncamı ilə azadlığa qovuşanlar arasında dindarlar da var. Dünən "Nardaran hadisələri"nə görə və ondan sonra həbs edilən Zülfüqar Mikayılzadə, Elman Ağayev, Elxan Həsənov, Ruzi İsmayılov, Rasim C?brayılov, Elvin Bünyatov, Lətif Əhmədov, Qorxmaz Cəlalov, həmçinin Taleh Bağırovun lideri olduğu Müsəlman Birliyi Hərəkatının sədr müavini Elçin Qasımov, Əlimxan Hüseynov, "Azadxeber" saytının baş redaktoru Nicat Əliyev də azadlığa buraxılıblar.**

Modern.az-ın əldə etdiyi məlumata görə, dindarların əfvi üçün Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Prezident yanında Əfv Komissiyasına müraciət edib. Komissiya əfv sərəncamı üçün məhkumların siyahısını hazırlayarkən Şeyxin müraciətini nəzərə alıb. Ölkə başçısı da bu müraciəti dəyərləndirib.

Əfv Komissiyasının üzvü, hüquqşünas Əliməmməd Nuriyev deyib ki, Allahşükür Paşazadə hər zaman mərhəmətin və humanizmin tərəfdarıdır: "Allahşükür Paşazadə təkcə dindarlarla bağlı deyil, digər şəxslər barədə də cənab prezidentə müraciət edib".

Ə.Nuriyev Şeyxin konkret olaraq kimlər üçün müraciət etməsi haqda əlavə məlumat verməyib: "Bu barədə ancaq müraciət edən insanlar məlumatlı ola, nəsə söyləyə bilər. Mən hər hansı formada nəsə deyə bilmərəm. Gizliliyi poza bilmərəm. Allahşükür Paşazadə hər zaman çətin vəziyyətə düşənlərin hüquqlarını müdafiə edib. Hər zaman onların azad olunmasının tərəfdarı olub".



## IX sinif şagirdləri üçün buraxılış imtahanının birinci mərhələsi keçirildi

**Dünən Dövlət İmtahan Mərkəzi Şəmkir, Gədəbəy, Ağstafa, Qazax, Tovuz, Mingəçevir, Balakən, Zaqatala, Qax, Yardımlı, Cəlilabad, Masallı, Lerik, Göyçay, Ağdaş, Ucar, İsmayıllı, Qobustan, Ağcabədi, Füzuli, Beyləqan, Salyan, Neftçala, Hacıqabul, Qusar, Quba, Siyəzən, Xızıda, həmçinin Bakı şəhərində yerləşən xüsusi məktəblərin - internat məktəblərində, tədrisi ingilis dilində olan məktəblərdə, Çilov adasında yerləşən məktəbdə, cəzaçəkmə müəssisələrində ümumtəhsil müəssisələrinin 9-cu sinif şagirdləri üçün buraxılış imtahanının birinci mərhələsini keçirib.**

9-cu sinif buraxılış imtahanının birinci mərhələsində 33054 (Şəmkirdə 2644, Gədəbəydə 832, Ağstafada 928, Qazaxda 967, Tovuzda 2076, Mingəçevirdə 1367, Balakəndə 964, Zaqatalada 1162, Qaxda 598, Yardımlıda 623, Cəlilabadda 2197, Masallıda 2197, Lerikdə 574, Göyçayda 1308, Ağdaşda 1169, Ucarda 913, İsmayıllıda 945, Qobustanda 379, Ağcabədidə 1720, Füzulidə 808, Beyləqanda 1164, Salyanda 1398, Neftçalada 807, Hacıqabulda 816, Qusarda 1113, Qubada 1938, Siyəzəndə 527, Xızıda 182, həmçinin Bakı şəhərində yerləşən xüsusi məktəblərin - internat məktəblərində, tədrisi ingilis dilində olan məktəblərdə, Çilov adasında yerləşən məktəbdə, cəzaçəkmə müəssisələrində olan ümumtəhsil müəssisələrində 738) şagirdin iştirakı nəzərdə tutulurdu.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

YENİ MÜSAVAT
N 61 (7231) 18 mart 2019

**2019-cu ilin əvvəlindən başlayaraq ölkənin həm siyasi cameəsinin, həm vətəndaş cəmiyyətinin böyük maraqla gözlədiyi əfv sərəncamı martın 16-da imzalandı. İki aya yaxındır ki, medianın da ciddi maraq göstərdiyi əfv sərəncamı gözləndiyi kimi geniş rezonans doğur-**




# Prezidentin tarixi əfvi - iki Əli və ikiəlli azadlığa çıxanlar...

Prezident İlham Əliyevin siyasi opponentlərini, hakimiyyət tənqidçilərini vaxtından əvvəl həbsdən azad etdiyi ilk dəfə deyil və son da olmayacaq - amma ilk dəfədir ki, 50-yə yaxın siyasiləşmiş dustaq bir əfv sərəncamı ilə azadlığa buraxılıb; dövlət başçısı siyasi cameənin, hüquq müdafiə təşkilatlarının, vətəndaş cəmiyyətinin ondan gözlədiyi jesti etdi və bundan sonrası...

Budəfəki əfvə daha çox diqqət yönəldən başqa mühüm amillər vardı. Ötən ilin sonundan və bu ilin əvvəlindən prezident İlham Əliyevin xüsusilə sosialyönümlü qərarları, ölkədəki problemlərin daha açıq müzakirəsinə hazır olması barədə real addımları, məhkəmə və hüquq sahəsində islahatların dərinləşəcəyi anonsu əfvə diqqəti xüsusilə artırmışdı. Atılan addımlar və verilən mesajlar daha çox ölkədə sosial bərabərliyin yaradılmasına yönəlsə də, bunların məntiqi davamı kimi siyasi cəmeənin də bu proseslərdən gözləntiləri vardı. Çünki ölkədə siyasi ab-havanı müəyyən edən "barometr"lərdən birinin də məhz "siyasi dustaqlar" məsələsi olduğunu inkar etmək olmaz. Bu məsələyə ayrıca qayıdacağıq. Amma öncəliklə adı cəmiyyətə tanış olmayan yüzlərlə insanın əfvlə azadlığa buraxılması onların ailə üzvləri və qohum-əqrəbası daxil olmaqla on minlərlə ölkə insanının üzünü güldürüb ki, bu da xüsusi qeyd edilməlidir. Onlar üçün adlarının hansı tanınmış sima ilə bir sərəncamda olmasının heç bir əhəmiyyəti yoxdur. Əfv edilənlər üçün mühüm olanı azadlığa və ailələrinə qovuşmaları, cəmiyyətə yenidən adaptasiya olunmalarıdır. Bu mühüm amilin xeyli səs-küy yaratmış siyasi dustaqlar məsələsi fonunda unudulmaması gərəkir. Prezidentin əfv sərəncamının önəmi heç də bəzi siyasilərin azadlığa buraxılması ilə qiymətləndirilməməlidir. Bu, dövlətin və dövlət başçısının hansısa cinayətdən həbsə düşmüş vətəndaşına olan inamıdır, onu ölkə həyatına yaralı deyil, yararlı qaytarmaq şansıdır.

**Prezidentin əfv sərəncamının önəmi heç də bəzi siyasilərin azadlığa buraxılması ilə qiymətləndirilməməlidir. Bu, dövlətin və dövlət başçısının hansısa cinayətdən həbsə düşmüş vətəndaşına olan inamıdır, onu ölkə həyatına yaralı deyil, yararlı qaytarmaq şansıdır**

Bu yerdə sərəncamın əhatə dairəsini yenidən yada salaq: 399 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş üç nəfərdən birinin cəzası 25, iki nəfərinki isə 20 il müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəzlənib. Bundan başqa, şərti olaraq məhkum edilmiş daha 12 nəfər əfv olunub, üç nəfər islah işləri cəzasından, bir nəfər ictimai işlər cəzasından, 12 nəfər isə cərimə cəzasından azad edilib.

Əfv iki əsas spektri əhatə edir: siyasi və dini spektri. Azadlığa buraxılanlar arasında hər iki cəmeənin tanınmış nümayəndələri var. Onlardan kimin əfv ərizəsi yazıb-yazmadığı indi maraqlı da deyil. İstisna deyil ki, azadlığa buraxılan siyasilər sırasındakı bəzilərini prezident heç tanımasın da. Amma heç şübhə yoxdur ki, bu, istisnasız olaraq prezidentin iradəsini əks etdirən siyahıdır.

**Güman ki, kimlərin azadlığa buraxılan kimi hansı bəyanatlar verəcəyini prezidentə son siyahını təqdim edənlər də, son qərarı verən dövlət başçısı da hamıdan yaxşı bilib. Halbuki heç olmasa, uzun həbs həyatından sonra evinə gedib bir neçə gün dincələndən sonra da siyasi bəyanatlar vermək daha məntiqli olardı**

Güman ki, kimlərin azadlığa buraxılan kimi hansı bəyanatlar verəcəyini prezidentə son siyahını təqdim edənlər də, son qərarı verən dövlət başçısı da hamıdan yaxşı bilib. Halbuki heç olmasa, uzun həbs həyatından sonra evinə gedib bir neçə gün dincələndən sonra da siyasi bəyanatlar vermək daha məntiqli olardı. Çünki Novruz ərəfəsindəki əfvin psixoloji qatında cəmiyyətdə bayram və barış əhval-ruhiyyəsi yaratmağa yönəldiyini görməmək də mümkün deyil. Bunu necə qiymətləndirmək, əlbəttə ki, həbsdən çıxanların öz işidir, onlara yön vermək və ya qınamaq bizim görəvimiz deyil. Əsas olan budur ki, İlham Əliyev siyasi cameənin, hüquq müdafiə təşkilatlarının, vətəndaş cəmiyyətinin ondan gözlədiyi jesti nə mümkünsə etdi və bundan sonrası hakimiyyətlə yenə də opponentlik etmək, siyasi mübarizə aparmaq istəyənlərin öz seçimləridir.

**Əfvin siyasi anlamda təhlili gərəkirsə, bu, cəmiyyətdə ehtiyac duyulan siyasi barış mühitinin möhkəmlənməsinə xidmət edir, həbsdəkilərin arxasında gizlənən siyasi hoqqabazlığa qarşıdır...**

Prezident İlham Əliyevin siyasi opponentlərini, hakimiyyət tənqidçilərini vaxtından əvvəl həbsdən buraxdığı ilk dəfə deyil və son da olmayacaq. Amma ilk dəfədir ki, 50-yə yaxın siyasiləşmiş dustaq bir əfv sərəncamı ilə azadlığa buraxılıb. Bu baxımdan İlham Əliyevin Novruz əfvi xüsusi dəyər qazanmış olur. AXCP sədrinin müavinlərinin və sabiq səhiyyə naziri Əli İnsanovun azadlığa buraxılmasının sərəncamın siyasi yükünü artırdığını inkar etmək olmaz. Amma AXCP sədrinin iqtisadi cinayətlərə görə məhkum edilmiş qaynının da həbsdən buraxılması dövlət başçısının xalqın güzəranının yaxşılaşdırılmasına yönəlik sosial qərarlarını belə, özünəməxsus qərəzlə şərh edən cəbhəçi sədrə xüsusi mesaj kimi qiymətləndirmək əfvin əhəmiyyətini azaltmış olar. Bu, bir siyasi qurum sədrinin azadlığa çıxanları az qala öz "əfv siyahısı" kimi təqdim etməsi qədər reallıqdan uzaq olardı. Amma əfvin siyasi anlamda təhlili gərəkirsə, bu, cəmiyyətdə ehtiyac duyulan siyasi barış mühitinin möhkəmlənməsinə xidmət edir, həbsdəkilərin arxasında gizlənən siyasi hoqqabazlığa qarşıdır...

Qeyd edilməlidir ki, nə qədər həm siyasi, həm iqtisadi dəyişikliklərə yönəlmiş addımlar ölkə daxilinə fokuslansa da, eyni həssaslıqla ölkə xaricində - Azərbaycanın üzv olduğu Avropa Şurasında, bütün istiqamətlərdə sənəd imzalamaq hazırlığı sürəcində olan Avropa Birliyində də diqqətlə izlənməkdədir. Gözləniləndir ki, bu qurumlar da tezliklə əfvin siyasi mahiyyətinin obyektiv qiymətləndirməsini də edəcək. Azərbaycan iqtisadi islahatların davamı kimi, siyasi islahatlar üçün də ciddi hazırlıq mərhələsinə daxil olub. Bunu dövlət başçısı son çıxışlarında da anons edib. Siyasi islahatların əsas hərəkətvericisi isə məhkəmə-hüquq sahəsində islahatların daha da dərinləşməsi olacaq. Məhkəmə institutunun müstəqilləşməsi "siyasi məhbus" mövzusunun həm ölkə daxilində, həm beynəlxalq səviyyədə Azərbaycana qarşı təzyiq predmeti olmasını tam əngəlləyəcək.

❑ **Nazim Sabiroğlu, "Yeni Müsavat"**

## Əli İnsanov: "Ölkədən və siyasətdən getməyəcəyəm"



**"Azərbaycandan kənara getmək fikrim yoxdur". Bunu prezident İlham Əliyevin imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamı ilə azadlığa buraxılan sabiq səhiyyə naziri Əli İnsanov deyib.**

O, Azərbaycanda yaşayacağını qeyd edib: "Ailə üzvlərim ölkədədir, ona görə də harasa getmək fikrim yoxdur".

Sabiq səhiyyə naziri Əli İnsanov azadlığa buraxılmasına görə Avropa Birliyinə və ABŞ-a təşəkkür edib. O, virtualaz.org-un müxbirinə deyib: "Qərb mənim ayağımdakı qandalları açdı. İstərdim ki, Azərbaycan hökuməti də əlimdəki qandalları açsın. Ölkədən heç yana getməyəcəm. Mübarizəmi davam etdirəcəyəm".

Ə.İnsanovun sözlərinə görə, həbsxanadan azad olunması onun üçün gözlənilməz olub. O, siyasətdən heç vaxt ayrılmayacağını deyib.

## Fikrət Fərəməzoğlu: "Adımın əfv siyahısında olacağına inanmırdım"



**Jurnalist Fikrət Fərəməzoğlu da prezidentin əfv fərmanı ilə azad olunanlar sırasındadır və bu gün səhər saatlarında azadlığa buraxılıb, artıq evindədir. Musavat.com-un əməkdaşı onların evində olub.**

F.Fərəməzoğlu bildirib ki, qabaqcadan əfv olunacağını bilmirdi: "Ümumi əfv veriləcəyini bilirdim, amma adımın həmin siyahıda olacağına inanmırdım. Dünən 17:30-da bilindi ki, əfv siyahısında adım var. Mənə qədər əfvə düşən digər siyasi məhbusların adları məlum idi, ən axırıncı mənim adım gəldi".

Jurnalist bütövlükdə əfv fərmanını yüksək qiymətləndirib: "Bu işdə əməyi olan hər kəsə təşəkkür edirəm. Hətta bir insanın azadlığa çıxması böyük hadisədir. Çünki həbsdə cinayət törətmiş şəxs belə mənəvi əzab çəkir".

F.Fərəməzoğlu 2 il 8 ay 17 gün dustaq olduğunu qeyd edib: "Evə gələndə elə bildim ki, işə getmişdim. İlk növbədə həbsxanaya adaptasiya olmağı tez bacardım. Prinsip etibarı ilə elə bil, böyük qəsəbədə yaşayırdım, sadəcə, kontingent fərqli idi. O baxımdan saxlanma şəraitimdən narazı deyildim. Ümumiyyətlə, həbs böyük akademiyadır. Biz kimi hər bir jurnalistin azı 1 il orada qalması lazımdır (gülür - E.S.). Həbsxana informasiya, psixologiya, həyat, mənəviyyat baxımdan çox şey adama öyrədir, sadəcə, diplomu yoxdur".

O, jurnalist fəaliyyətini bərpa edəcəyini söyləyib, eyni zamanda, siyasi ekspert kimi də çıxışlar etmək fikrində olduğunu bildirib.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 61 (7231) 18 mart 2019

**Ölkədə yuxarıdan inqilab gedir. Buna "Ağ inqilab" da deyə bilərik. Bu inqilabın memarı Azərbaycan prezidenti İlham Əliyevdir.**

**Proses o qədər sürətlidir, həm də çoxları üçün o qədər gözlənilməzdir ki, "'əks-inqilabçılar'" kimdir, hələlik bəlli deyil, orda-burda boy qaldırırlar, lakin opponentləri prezidentin sürətinə çata bilmirlər.**

**Rauf ARİFOĞLU**



# İlham Əliyevin inqilabı



Prezident İlham Əliyevsə son 75 gündə bir prezidentlik müddətinə sığa biləcək inqilabi dəyişikliklər edib. "'Ağ inqilab'" belə olur! İqtisadi-sosial sferanı əhatə edən ard-arda verilən sosial fərman və sərəncamlardan sonra siyasi islahatlar istiqamətində çox ciddi addımlar atıldı. Görünən budur ki, bu addımlar daha da dərinləşəcək.

16 mart tarixində verilən əfv sərəncamı miqyaslı, ölkəni və siyasi səhnəni barışa, həmrəyliyə istiqamətləndirən mərhələ xarakterli bir addımdır. Bu hakimiyyətin ardıcıl tənqidçilərindən olan Əvəz Zeynallı yazır ki, prezident 55 nəfərlik siyasi məhbus siyahısından 52 nəfəri azad edib. Daha bir radikal tənqidçi, Meydan TV layihəsinin müəllifi Emin Milli isə prezident haqqında ciddi və hətta inanılmaz, təbriklər-təriflərlə dolu məqalə yazıb, ona inandığını bildirib, cəsarətinə görə alqışlayıb, ölkəsinə dönmək, ondan müsahibə almaq ustədiyini söyləyib.

Sabiq spiker İsa Qəmbər bu fərmanı son illərin ən böyük siyasi əfvi adlandırıb. Əli Kərimli, Pənah Hüseyn, İqbal Ağazadə, digər müxalifət liderləri daxil, hər kəs bu fərmanı təqdir edən cümlələr işlədib. Doğrudur, müxalifət prosesin davamını istəyir, azdır deyir. Məndəki məlumata görə, əfv fərmanının davamı bu ilin may ayında olacaq və tamamlanacaq.

Əfv fərmanında Əli Kərimliyə münasibətdə ciddi jestlər sayıla bilən məqamlar var, adam bunu anlayacaqmı, yoxsa tərsdənmi gələcək, ilk reaksiyasından bəlli olmadı. 16-cı ilin aprel döyüşləri zamanı ilk iki gündə Əli Kərimli çox konstruktiv, pozitiv idi, lakin sonradan elə dəyişdi ki, onun çıxışlarını ermənilər manşetlərdən yaydılar. Arzu edirəm, bu dəfə belə olmasın. Üstəlik, prezidentin davranışlarının, islahat və inqilabi addımlarının ideologiyası əslində siyasi müxalifətə heç də yabançı deyil. Prezident İlham Əliyevin ən ciddi müttəfiqləri və onun addımlarına dəstək, əslində, indi siyasi səhnədə fəallaşmaqda olan müxalifətçilər olmalıdır. "Çörəyi" demokratiyadan çıxan hər kəs İlham Əliyevə dəstək olmalı, onun islahatlarının davamlılığında, daha da dərinləşməsində maraqlı olmalıdırlar. Olmayacaqlarsa, deməli, onlar demokrat deyillər, açılım istəmirlər və ölkələrini, demokratiyanı yox, başqa şeyləri düşünürlər. Ya da yad maraqların daşıyıcılarıdırlar.

Çünki islahatların, İlham Əliyev inqilabının davam etməsi, böyüməsi həm də ölkədəki siyasi müxalifətdən asılıdır. Onlar bu bu prosesdə əks-inqilabçı olsalar, imkan verməsələr, küçələrə çıxsalar, fürsətçilik edib mühitin demokratikləşməsindən 2005-ci ildə olduğu kimi, mövcud hakimiyyəti devirməyə çalışsalar, əlbəttə ki, hər şey tərsinə dəyişəcək...

Bu prosesin 14 il daha ləngiməsinin kökü də məhz 2005-ci ilə bağlıdır - bəzi müxalif qrupların parlament seçkiləri zamanı hakimiyyətdəki bir qrupla anlaşaraq, hakimiyyəti ələ almaq cəhdinə...

Tarix təkrar olunur?

Bu gün 2005-dəki əks-inqilab cəhdinin əsas fiqurlarından biri və həbsxanada qalan sonuncusu əfvlə türmədən çıxdı... Çıxan kimi də mövqeyini ortaya qoydu. "Böyük Amerika" dedi, "Avropa" dedi, həbsdən çıxmasına görə onlara təşəkkürlərini bildirdi. Hesab edirəm ki, bu, bir kursdur, həm də, demək mümkünsə, bir anlaşma. Axı həbsxanalar o qədər də qapalı yerlər deyil...

Əli İnsanov müxalifətə də iddia dolu reveranslar etdi. Müxalifətin ona qoşulmalı olduğunu ortaya atdı, özünü hakimiyyət almasını quyunun dibindən çıxardacaq Məlikməmməd elan etdi.

Bir sözlə, əks-inqilabın başı özünü göstərdi.

Əminəm ki, cəmiyyətin və müxalifətin sağlam düşünən kəsimi bu kinli qocaya qoşulmayacaqlar. Müxalifətin tanınmış simalarından birindən Əli İnsanovun bu açıqlamalarına münasibətini soruşduqda, belə dedi: "'O, bizdən deyil. Onunla bizim müttəfiqliyimiz baş tutmaz. Əli İnsanov hər kəsdən daha mürtəce olduğunu nazir və YAP-ın rəhbərlərindən biri olanda ortaya qoyub. Bu adam mahiyyətini dəyişməyib. Ona görə də milli müxalifətin onunla anlaşa biləcəyini mümkün saymıram, mümkünsüzdür'".

2005-ci ildə islahatları dayandıran və hakimiyyəti devirmək üçün ABŞ səfiri Rino Harnişlə, iqtidarın içindəki nazir və Aparat təmsilçiləri ilə, regional mafiya və onun müxalifətdəki uzantıları ilə, Rəsul Quliyevlə anlaşaraq, Azərbaycanda baş tutmayan çevrilişə imza atan bu uğursuz adam ölkəyə ancaq zərər verib. Xüsusilə də Qərbi Azərbaycan doğumlu soydaşlarımıza. Məhz Əli İnsanov bu topluma hakimiyyətin etimadının itirilməsinin əsas səbəbkarıdır. İndi də həmən ifa davam edir.

*****



Əli İnsanovu həbsxanaya aparan 2005-ci ilin həmin payızını xatırlayırsınızmı? Parlamentə 30-a yaxın tanınmış müxalifət təmsilçiləri düşəcəkdi, ciddi siyasi-sosial islahatlara start veriləcəkdi. İlham Əliyev xarici jurnalistlərə demişdi ki, mənim nələr etmək istədiyimi bilsəniz, inanmayacaqsınız... O zamankı dəyişim-açılım planlarını Əli İnsanov və onun tərəfdarlarının sui-qəsdləri dayandırdı. Prezident Əliyevin ilk islahat - dəyişim-açılım proqramı məcburi dayandırıldı! İslahatlar əvəzinə sui-qəsdçilərin və onlara dəstək verənlərin həbsləri başladı. Müxalifət parlamentdən kənarda qaldı. Qərblə - ABŞ-la münasibətlər soyudu, ABŞ səfiri ölkədən çıxardıldı.

2005-ci il seçkiləri demək olar ki, pozuldu və İlham Əliyevin Azərbaycana təklif etdiyi islahatları həm Qərb, həm də yerli müxalifət əlinin arxası ilə çevirdi.

****

Bir müddət sonra prezident İlham Əliyev cəmiyyəti özünə müttəfiq seçdi; hazırlıqlar ona hesablandı, siyasətə deyil. ASAN modeli gətirildi ölkəyə. Bu, bir vizion idi. İlham Əliyev Azərbaycanı necə görmək istəyir və Azərbaycan insanına hansı standartı təklif edir. ASAN xidmət sektoru Azərbaycana ilk gələndə, o müəssisələrdə olan azərbaycanlılar deyirdi ki, bura fərqli Azərbaycandır... Hüzur, təmizlik və əminlik...

İndi İlham Əliyevin Azərbaycana təklif etdiyi və yaratdığı modelin daha dərinə işləməsi üçün növbəti mərhələ başlayıb.

O, hakimiyyətini tamamilə ASAN modelinə keçirtmək üçün illərdir çalışır və addımlar atır.

O, məmur-oliqarx sistemini səhnədən yığışdırdı, məişət korrupsiyasına son qoydu, elitar korrupsiyaya ciddi zərbələr endirdi. Hakimiyyət içərisindən islahatlara müqavimət göstərə biləcək qüvvələri əhəmiyyətli dərəcədə zərərsizləşdirdi. Azərbaycanı müasir siyasi mədəniyyətlər səviyyəsinə çıxardacaq inqilabın bazasını hazırlayıb, ona start verdi...

Uğurlar, cənab prezident.

## Əfv sərəncamının icrası başa çatdı

**Martın 17-də Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevin ötən şənbə imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamı icra olunub.**



Sərəncamın icrası Milli Məclis deputatlarının, Ombudsman Aparatının, dövlət qurumlarının, ədliyyə nazirinin yanında fəaliyyət göstərən İctimai Komitənin, Əfv komissiyası üzvlərinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının, habelə kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Penitensiar Xidmətin tabeliyindəki 1, 2, 4, 6, 9, 10, 11, 15, 16, 17, Bakı İstintaq Təcridxanası və digər cəzaçəkmə müəssisələrində həyata keçirilib.

Ədliyyə Nazirliyinin və Penitensiar Xidmətin məsul əməkdaşları məhkumların saxlanıldıqları cəzaçəkmə müəssisələrinə gələrək, sərəncamın icrasını vaxtında və yüksək səviyyədə təmin ediblər. Prezident tərəfindən əfv olunmuş şəxslər Penitensiar Xidmətin tabeliyindəki cəzaçəkmə müəssisələrindən azadlığa buraxılıblar. Penitensiar Xidmətin rəhbərliyi cəzaçəkmə müəssisələrində əfv edilmiş şəxslərə, o cümlədən qadınlar, ahıllar və digər məhkumlara azad olunmaları barədə sənədləri təqdim ediblər. Bununla əlaqədar keçirilən tədbirlərdə çıxış edən Penitensiar Xidmətin rəhbərliyi, Ədliyyə Nazirliyinin nümayəndələri, Milli Məclisin deputatları, Ombudsman Aparatının əməkdaşları və digərləri Novruz bayramı münasibətilə məhkumlara və onların ailə üzvlərinə təbriklərini çatdırıblar.

YENİ MÜSAVAT
N 61 (7231) 18 mart 2019

# Siyasi münasibətlərdə yeni mərhələ

## İqtidar-müxalifət dialoqu gündəmə gələ bilər; “Münasibətlərin daha yüksək səviyyədə qurulması üçün hər iki tərəfdən yeni addımlar atıla bilər...”

**2019-cu ilin Azərbaycan tarixində təkcə sosial, iqtisadi islahatlar ili kimi deyil, həm də siyasi açılımlar ili kimi qalacağını artıq indidən söyləmək mümkündür. Ölkə prezidenti tərəfindən ard-arda çoxsaylı sosial xarakterli fərmanlar və sərəncamların imzalanmasının ardınca siyasi məhbus kimi təqdim edilən 50-yə yaxın məhbusun azad olunması siyasi islahatların da başlanğıcının əlaməti hesab edilir. Bir sıra siyasilər hesab edirlər ki, atılan addımlar Azərbaycanda fərqli siyasi sistemə, iqtidar-müxalifət münasibətlərinin yeni müsbət müstəviyə keçilməsinə gətirib çıxara bilər.**


İqbal Ağazadə


Fəzail Ağamalı

Görülən sosial yönlü müsbət tədbirlərin effektiv nəticələr verməsinə siyasi islahatların ciddi təsir edəcəyi bildirilir.

Ümid Partiyasının sədri İqbal Ağazadə musavat.com-a açıqlamasında deyib ki, 2019-cu il prosesləri yeni bir müstəviyə daşıya bilər: “Siyasi məhbusların həbsdən azad olunması gələcəkdə imkan verir ki, siyasi partiyalarla da dialoq yaransın və cəmiyyət barış, dialoq müstəvisində Azərbaycanın problemlərini həll edə bilsin. Azərbaycana da, Azərbaycanın problemlərinə də, regiondakı yerimizə, vəziyyətimizə də yaraşan barış və dialoqdur. Çünki bizim vəziyyətimiz olduqca çətindir. Həm Cənubi Qafqazda, həm dünyadakı yerimiz olduqca çətindir, böyük problemlərimiz var. Ya zəlzələdən, ya vəlvələdən Ermənistan-Azərbaycan münaqişəsi gəlib elə bir yerə dirənib ki, burdan yalnız dil, düşüncə, fikir, vətəndaş birliyi ilə çıxmaq mümkündür. Bunun üçün isə ilk növbədə hakimiyyət elə adddımlar atmalıdır ki, cəmiyyətin müxtəlif düşüncəli adamlarını bir araya, bir masa arxasına gətirə bilsin. Güman edirəm ki, bu da o addımlardan biridir. Siyasi müxalifət daha çox hakimiyyətin bu addımlarını təqdir edərək, böyük açılımlar etməyə həm həvəsləndirməlidir, həm də təminat verməlidir. Təminat verməlidir ki, biz bunu qiymətləndiririk; bu, dəyərli addımdır və ardınca da müxalifətlə, o cümlədən demokratik seçkilərlə bağlı ciddi addımlar atılsın. Müxalifətin görməli olduğu iş əslində bu istiqamətdə hakimiyyətə dəstək verməkdir. Hər halda hakimiyyətə bir təminat verməlidir ki, biz atdığınız addımların arxasındayıq və bundan kiminsə sui-istifafə etməsinə imkan verməyəcəyik, ölkəmizi möhkəmləndirəcəyik”.

Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı “Yeni Müsavat”a açıqlamasında ilk növbədə cənab prezidentin atdığı humanist addımı alqışladığını dedi. O daha sonra atılan addımların iqtidar-müxalifət münasibətlərinə təsir edəcəyi barədə danışdı: “Bu, prezident İlham Əliyevin Azərbaycan vətəndaşlarına yüksək rəğbəti, humanizm prinsiplərinə əsaslanmağı ilə bağlıdır. Prezident neçə-neçə ailələrə böyük sevinc bəxş etdi. Eyni zamanda, azadlığa çıxanlara da göz aydınlığı verirəm. Əminəm ki, onlar bu həbs müddətində öz fəaliyyətlərini götür-qoy ediblər. Mən çox istərdim ki, onlar Azərbaycan üçün daha üstün cəhətləri özündə ifadə edən, daşıyan, dövlətçiliyimizə töhfə verə biləcək vətəndaş kimi cəmiyyətdə fərqlənsinlər. Dövlətimizə, xalqımıza xidmət üçün hərə öz imkanları daxilində töhfəsini versin. Bir sözlə artıq onlar azadlıqdadırlar. Bu, çox yaxşıdır.

Ölkəmizin prezidenti, bildiyiniz kimi, 2018-ci ilin aprel seçkilərindən sonra dərin islahatlara başlayıb. Hələ prezident seçkiləri ərəfəsində söylədiyi fikirlər göstərirdi ki, artıq prezident seçkilərindən sonra Azərbaycan dövləti, cəmiyyəti özünün daha yüksək inkişaf mərhələsinə qədəm qoyacaq. Bu, dövlətçiliyimizin yeni bir diqqəti cəlb eləyən, cəmiyyətimizi möhkəmləndirən, xalqla prezidentin birliyini daha da yüksək səviyyəyə qaldıran bir mərhələ olacaq. Bu mərhələni prezident seçkilərindən sonra cənab prezidentimiz başladıb və bu gün də ciddi şəkildə davam edir. Təkcə 2019-cu ilin yanvarından bu tərəfə həm iqtisadi-sosial islahatlar sahədə mühüm qərarlar verilib, həm vətəndaşların gözlədiyi problemli kreditlərə dair fərman, eyni zamanda, struktur dəyişiklikləri ilə bağlı islahatların dərinləşməsinə xidmət eləyən fərmanlar, sərəncamlar imzalanıb. Bu proses gedir. Eyni zamanda, əlbəttə, gözlənilirdi ki, artıq Azərbaycana kənardan bir təzyiq forması kimi istifadə olunan, “siyasi məhbus” adlandırılan insanlar da azadlığa çıxacaqlar. Əslində prezidentin atdığı addımların mahiyyəti və məntiqi bunu göstərməkdəydi. Prezidentin atdığı bu addımlar ölkəmizdə siyasi məhbus amili üzərində alver etmək istəyən daxildəki qüvvələri və xaricdəki antimilli qüvvələri susdurmağı bacardı. Prezident bir daha nümayiş etdirdi ki, o, ölkəmizdə sağlam siyasi mühitin olmasında maraqlıdır. Məncə, başlanan bu müsbət proses davam edəcək. İstisna deyil ki, məhkəmələr qaydasında da “siyasi məhbus” kimi adı hallanan bəzi məhbuslar azad edilsin".

F.Ağamalı vurğuladı ki, demokratik cəmiyyətdə iqtidarla bərabər, müxalifətin olması çox vacib şərtdir: “Bu, ölkəmizin də inkişafı üçün ciddi bir şərtdir. Çox arzu olunandır ki, iqtidarın bu və ya digər hərəkətlərini qəbul etməyən, özü buna başqa cür yanaşan müxalifət mövqeyində duran insanlar qanunun aliliyinə söykənərək bu fəaliyyəti göstərsinlər. Prezidentimiz hər bir vətəndaşa, məmura nümunədir. Çox yaxşı olar ki, vətəndaşımız, müxalifətçilər, məmurlar cənab prezidentdən nümunə götürsünlər. O zaman məmur-vətəndaş münasibətlərində, siyasi münasibətlərdə daha yüksək səviyyəli sivil münasibətlər hökm sürəcək. Bu gün Azərbaycanda siyasi baxımdan qarşıdurma elementləri, demək olar ki, yox dərəcəsindədir. Müxalifət partiyalarının mütləq əksəriyyəti öz fəaliyyətini Azərbaycan qanunvericiliyi çərçivəsində qururlar, iqtidarla onların dövlətçilik baxımından hər hansı bir problemləri yaşanmır. Bu cür üstün cəhətləri, əlbəttə, unutmaq olmaz. Cənab prezidentin sosial-iqtisadi islahatların ardınca imzaladığı məlum əfv fərmanı ölkəmizdə siyasi münasibətlərin daha da müsbət yön almasında şübhəsiz ki, ciddi təsirini göstərəcək. Müxalifətlə iqtidar arasında münasibətlərin daha yüksək səviyyədə qurulması üçün bundan sonra hər iki tərəfdən yeni addımlar atıla bilər. Müxalifət iqtidara qarşı qərəzli mövqedən imtina edərək konstruktiv mövqedə duran mövqe nümayiş etdirsə, əlbəttə, iqtidar tərəfindən də onlara doğru addımlar atıla bilər. Bizim çox ciddi problemimiz var - Qarabağ problemi. Torpaqlarımızın işğalda olması bizim hər birimizin üzərinə böyük məsuliyyət qoyur. Burada iqtidar-müxalifət anlayışı tamamilə kənara qoyulmalıdır. Birmənalı olaraq bu anlayışdan imtina edib hər birimiz işğaldakı torpaqlarımızın azad edilməsi üçün əlimizdən gələni etməliyik. Bununla bağlı iqtidarla müxalifət arasında dialoq da təşkil oluna bilər. Ölkəmizin, ola bilsin ki, sosial-iqtisadi inkişafı ilə bağlı, digər vacib məsələlərlə bağlı iqtidar partiyası ilə müxalifət partiyaları arasında dialoqlar da təşkil oluna bilər. Bunlar siyasi mühit üçün də faydalı olar. Gələcəkdə bütün bunların olmasını istisna etmirəm”.

Deputatın sözlərinə görə, eyni zamanda, təbii ki, vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi üçün də bundan sonra dövlət başçısının siyasəti daha ardıcıl xarakter daşıyacaq: “Xüsusi olaraq vətəndaş cəmiyyətinin güclənməsində mühüm rol oynayan QHT-lərin, medianın fəaliyyəti bundan sonra, məncə, daha intensiv xarakter daşıyacaq. Onların bu və ya digər layihələrdə iştirakına geniş imkanlar açılacaq. İctimai rəyin formalaşmasında, dövlətçiliyimizdə xüsusi töhfələr vermək üçün güclü imkanlara malik Kütləvi İnformasiya Vasitələrinin fəaliyyətində də bundan sonra geniş imkanlar yaradılacaq. Bir sözlə, Azərbaycan getdikcə daha güclü bir cəmiyyətə, daha güclü ölkəyə çevrilməkdədir. Ölkə prezidentinin atdığı addımların mahiyyətində və məntiqində ciddi bir hədəf durur. Bu da yaxın zaman kəsiyində Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə qaldırmaqdır. Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə qaldırmaq üçün onun iqtisadi, sosial inkişafı ilə bərabər, həm də güclü vətəndaş cəmiyyətinin olması mühüm şərtdir. Mənə belə gəlir ki, artıq biz buna doğru ciddi addımlar atmaqdayıq”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

## Gözəl Bayramlı: “Əfv olunacağımı gözləmirdim”



**Prezident İlham Əliyevin dünən imzaladığı əfv sərəncamı ilə 4 saylı cəzaçəkmə müəssisəsindən azadlığa buraxılan AXCP sədrinin müavini Gözəl Bayramlı mediaya açıqlama verib. Unikal.org-un xəbərinə görə, G.Bayramlı əfv olunacağını gözləmədiyini deyib: “Mən əfv üçün müraciət etməmişdim, ona görə də əfv olunacağımı gözləmirdim. Bu səbəbdən də mənə verilən 3 illik cəzanı çəkməyə hazır idim”.**

G.Bayramlı bildirib ki, həbsdə olduğu müddətdə səhhətində bəzi problemlər yaranıb, amma özünü yaxşı hiss edir. AXCP sədrinin müavini Azərbaycanda siyasi məhbus probleminin kökündən həll olunmasının vacibliyini bildirib. Onun sözlərinə görə, dövlət başçısı belə bir addım atıbsa, bunun ardı gəlməlidir. G.Bayramlı Xətai rayonundakı 4 saylı cəzaçəkmə müəssisəsindən 25 nəfər qadının azadlığa buraxılmasına çox sevindiyini deyib.

G.Bayramlı 2018-ci ilin yanvarında Qazax rayon məhkəməsi tərəfindən qaçaqmalçılıqda təqsirli bilinərək, 3 il müddətinə azadlıqdan məhrum edilmişdi.

YENİ MÜSAVAT
N 61 (7231) 18 mart 2019



# Pafosa qarşı ol, amma düşmənə qahmar çıxma

**Samir SARI**

**Bilənlər bilir, Mandıra filosofunun sözü olmasın, pafosa qarşıyam. Boğazdan yuxarı deyilən sözlərdən, başqalarını tovlamağa hesablanmış çıxışlardan, nəsə bir marağa xidmət edən cümləpərdazlıqlardan zəhləm gedir.**

Əslində çox adam belədir. O cür çıxışlar etməyən hər bir kəs pafoslu danışanların nə yuvanın quşu olduğunu bilirlər, sadəcə, çox vaxt üz-üzdən utandığı üçün dil doğrunu üzə demir, eləcə susur.

Konkret misallar çəkək: O ki deyirlər e "ən böyük arzum budur, gələn Novruz bayramını Şuşada, Cıdır düzündə keçirək", çox vaxt yalandan deyirlər. Onların ən böyük arzusu o deyil. Onu deyənlərin 90 faizi nə Şuşa hayındadır, nə Cıdır düzü hayında, sözdür, deyir, keçir, varıb gedir pul-parasını qazanmağa.

Bir ara o qədər dəb olmuşdu ki, bütün sənət adamları gələn il bu vaxt Cıdır düzündə olmaq arzularını elan edirdilər (sanki iki aydan sonra olmazdı, mütləq 1 il keçməliydi), müğənnilər, rəqqasələr "gün o gün olsun, Cıdır düzündə oxuyub-oynayaq" deyirdilər. Şuşada hansısa yarışda qalib gəlib "bayraq qaldırmaq" arzusunu bəyan edənlər də vardı. Bircə fahişələr qalmışdı, onlar da "arzumuz budur ki, gələn il bu vaxt Cıdır düzündə... gəzək" desəydilər, pafos çələngi tam olacaqdı, amma bunu onlara başa salan olmadı.

Zaman-zaman dövlətçilik, dövlətçiliyə sədaqət, vətənpərvərlik mövzularında da pafos püskürməsi ərşə qalxır, İslandiyadakı Eyyaflayokuldr vulkanından hündür olur. Arada "filankəs bayrağımızı filan tədbirdə tərsinə tutdu ", "filankəs himnimiz oxunanda düz baxmırdı, əli də ürəyinin üstündə deyildi" deyə kimlərisə pafoslu-pafoslu şişə taxırlar.

Bütün bunlar ironiya doğurur, qeyri-səmimi görünür.

Amma bu medalın bir tərs üzü də var. Bu ölkədə bir yığın adam mövcuddur ki, nə olursa-olsun, bütün mövzularda, hər zaman ölkəmizi, rus jarqonuyla desək, "neprav" çıxarırlar. Nə baş verir-versin, biz haqsızıq. "Ramil Səfərov Macarıstanda Qurgeni yatdığı yerdə baltalayıb" deyirlər, yəni Ramil haqsızdır, düz eləməyib. Qurgen Ramili baltalamış olsa, deyəcəkdilər, Qurgen haqlıdır, Ramil ona sataşmayaydı, o da onu baltayla vurmayaydı.

O gün bir rus politoloq deyib ki, Azərbaycan Ermənistanı buterbrod kimi sıxıb əzə bilər. Bizim qəzetdə də politoloqlar bu sözü və regiondakı durumu şərh ediblər. O sözü deyən rus politoloq da kənarda qalmışdı, onun sözünü şərh edən bizim politoloqlar da, həmin yazıya rəy bildirən 80-dən artıq adam "Azərbaycan qələt eləyər" mənası verən şərh yazmışdı. Sanasan, bir dəstə erməni azərbaycanlı nikləri ilə sosial şəbəkəyə doluşub. Biri qəzəbli rəy yazır, o biri istehza edir, bu biri Azərbaycan əsgərini aşağılayır, digəri yazı müəllifinə və qəzetə ilişir və s və i.a.

Öz dövlətinə, öz millətinə bu qədər güvənsizlikmi olar? Güvənsizlik o tərəfə dursun, yəni nifrət o qədər böyükdür ki, öz ölkəmizi qan düşmənimizin ayağına veririk?

Yaxşı, Siyavuş Novruzovdan xoşunuz gəlmir, gəlmir, Raquf Orucovun ölkəsini niyə aşağılayırsınız?

Hələ bu bir yazıya görə üzə çıxanlardır. Vay amandır, beynəlxalq mediadan bir xəbər tərcümə edib qoyasan və o xəbərdə Ermənistanın göstəricisi Azərbaycanınkından zəif ola. Dərhal etirazlar yüksəlir: "Camaatın başını aldatmayın"; "Yalan yazmayın" və s.

Əgər həmin xəbərdə Ermənistanın göstəricisi Azərbaycanınkından yaxşıdırsa, val başqa cür oxuyur: "Görürsünüzmü, Allahın Ermənistanı qədər deyilik, orda filan şey filan cürdür, bizdə ayrı cür".

Ermənistandan miqrasiya edənlər barədə erməni mətbuatı da yazır, rus mətbuatı da, hətta Avropa mətbuatı da. Neçə vaxtdır bu onlarda aktual problemdir, vaxtaşırı bu mövzuda yazılar çıxır. Biz də yazanda sosial şəbəkənin Azərbaycan seqmentində lağ-lağı başlayır: "Hə, bilirik, Ermənistan çökür. AzTV Almaniyanı çökdürdüyü kimi, siz də Ermənistanı çökdürürsünüz. He-he-he"; "İşimiz düzəlir ki... Bu gedişlə 5-10 ilə Ermənistanda adam qalmayacaq, torpaqlar da bizə qalacaq. Ha-ha-ha"; "İşiniz-gücünüz yoxdur də, oturub erməni miqrantlarını sayırsınız" və s.

Di gəl, bunları başa sal ki, bunlar ermənilərin öz xəbərləridir, biz uydurmuruq.

Bir sözlə, bu ölkədə xeyli sayda özləri də bilmədən, bəlkə də qətiyyən istəmədən erməni tərəfdarı olanlar var. Ola bilər, onlar səmimi şəkildə pafosa, riyaya, yalana qarşıdırlar, amma burası dəqiqdir ki, çox vaxt ifrata varırlar, əndazəni aşırlar, nəticədə öz vətənlərinə qarşıymışlar kimi görünürlər.

"Qızıl orta" deyilən bir şey var. Qütblərə yuvarlanmadan orda durmaq yaxşıdır...

---

**Bu gün, martın 18-də Bakı Apelyasiya Məhkəməsində hakim Rəşad Abdulovun sədrliyi ilə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri vəzifəsində çalışmış Arif Əsgərovun, onun oğlu Elnar Əsgərovun adı qarışan cinayət işi üzrə proses davam edəcək. İş üzrə artıq hazırlıq iclası keçirilib.**

# Arif Əsgərovun adı hallanan 30 milyonluq dələduzluq işi yenidən məhkəmədə

## Sabiq nazir müavininin baldızı üsyan etdi; ortada 20-30 milyon pulun qara mühasibatlıq hesabatı var!..



Hakim qarşısına Arif Əsgərovun baldızı oğlu Rahib Hüseynov çıxarılıb. O, barəsində Bakı Ağır Cinayətlər Məhkəməsində çıxarılan hökmün qanunsuz və əsassız olduğunu, hökmün dəyişdirilməsini tələb edir. Rahib Hüseynov 2018-ci ilin dekabrında külli miqdarda dələduzluqda təqsirli bilinərək 9 il müddətinə azadlıqdan məhrum edilib. İttihama görə, iş üzrə zərər çəkən şəxslərə 4 milyon 300 min manat zərər vurulub. O, zərərçəkənləri "Azərbaycan Dəmir Yolları" QSC-yə yataq dəstləri gətirmək adı ilə aldatmaqda ittiham edilsə də, deyir ki, pullar xalası oğlu Elnar Əsgərov tərəfindən alınıb, o, alınan pulların qeyri-rəsmi qeydiyyatını aparıb. İş üzrə zərərçəkənlər Emin Məmmədovun da, Qoşqar Zeynalov və başqalarının da ifadələri ilə Rahib Hüseynovun fikirləri arasında uyğunluq var. Bundan başqa, o, ilkin məhkəmə instansiyasında məhkəməyə Arif Əsgərovun oğlu, "Liman Group" şirkətinin rəhbəri Elnar Əsgərovun qara mühasibatlıq aparmasını təsdiqləyən 5 kitab da təqdim edib. Rahib Hüseynov 2013-cü ildə həbs edilməzdən öncəyə qədər həmin kitablarda Elnar Əsgərovun görülən işlərlə, alınan məbləğlərlə bağlı qeydləri yazılıb. Rahib Hüseynov həmin 5 kitabda ayrı-ayrı şəxslərdən aldığı, iş üçün ayrılan milyonları qeyd edib. Həmin kitablarda xeyli sayda vəzifəli şəxslərin adının keçdiyi məlum olub. O kitablarda qeyd edilən məbləğlər 20-25 milyondur. Vəzifəli şəxslərin yaxınlarından alınan pullarla Arif Əsgərovun oğlu dəmiryolu üçün xaricdən avadanlıqlar alaraq dövlətə baha qiymətə satıb. Qazancdan isə pul aldığı şəxslərə də faiz verib. Məlum olub ki, kitablarda adı keçən həmin şəxslər Arif Əsgərovun oğlu Elnar Əsgərova verdikləri pullar qarşılığında xeyli qazanc əldə ediblər.

Rahib Hüseynov məhkəmədə dönə-dönə vurğulayıb ki, o, Elnar Əsgərovun tapşırığı, birbaşa iştirakı ilə pulların alınması və aylıq faizlərin verilməsinə, qara mühasibatlıq işinə nəzarət edib. Rahib Hüseynovun qardaşı Emil Hüseynov da Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 9 il cəza alıb. Həmin cinayət işində də Arif Əsgərovun oğlu, "Liman Group" şirkətinin rəhbəri Elnar Əsgərovun da adı hallanırdı. Emin Hüseynov da pulları xalası oğlu Elnar Əsgərova verdiyini israr edirdi. Elnar Əsgərov hər iki xalası oğlunun işində şahid kimi keçib.

Rahib Hüseynovun anası Lətifə Hüseynova "Yeni Müsavat"a açıqlamalarında deyib ki, Elnar Əsgərov pulları adamlardan atasından gizli yığıb, onlara verdikləri pula görə faizləri də gizli ödəyib. Məsələnin üstü Arif Əsgərov işdən çıxarılandan sonra açılıb və Elnar Əsgərov bütün suçu onun oğlu Rahib Hüseynovun üstünə atıb. Milyonlarla pulu Rahib Hüseynovun adamlardan özbaşına yığdığını deyib. Rahib Hüseynov isə məhkəmədə deyib ki, o, xalası oğlu Elnar Əsgərovun adamlardan aldığı pullara görə elə onun göstərişi ilə faizlər ödəyib. Elnar Əsgərovun milyonlarla manat pulu hara xərcləməsi haqda da mətbuatda məlumatlar var. Onun həmin pulları Türkiyədə Mehriban adında qadında saxladığı iddia olunur. Belə məlumatlar var ki, həmin qadın əvvəllər Bakıda, 5 saylı Səhər Klinik Xəstəxanasının yanındakı çoxmərtəbəli binada yaşayıb. Onun Novxanıda bağ evi də olub. Həmin bağ evinin əslində Elnar Əsgərova məxsus olduğu xəbəri də var. Qeyd olunur ki, Mehriban adlı qadın həmin evdə Gulya adlı anası və Nərgiz adlı qızı ilə yaşayıblar. Elnar Əsgərovun həmin qadına inamı olduğu deyilir. Adamlardan yığılan pulların Elnar Əsgərovda olmasını deyən Hüseynovlar onun Türkiyədə əlaqələrinin olmasını təsdiqləyirlər. Deyirlər ki, onun pulları Mehriban adlı qadında saxlaması haqda eşitsələr də, buna dair əllərində konkret fakt yoxdur. Onlar qeyd edirlər ki, Arif Əsgərovun sürücüsü Vahid və ailəsinin sürücüsü Əbülfəzə Novxanıda bağ evləri tikdirməsi haqda məlumatlıdırlar. Bundan başqa, Arif Əsgərovun Qubada sabiq müdafiə naziri Səfər Əbiyev və keçmiş nəqliyyat naziri Ziya Məmmədovla qonşuluqda villasının olduğu, Qəbələ, İsmayıllı rayonlarında da dəbdəbəli evlərinin varlığı haqda da məlumatlar var. Qeyd edək ki, vaxtilə normal maddi imkanları olan Rahib və Emin Hüseynovların atası İsmayıl Hüseynov hazırda müflis durumdadır. Bakıdakı evləri, mal-mülkləri əllərindən çıxıb. Bir oğlu Emin Hüseynov 9 il həbs cəzasına məhkum edilib. 6 saylı cəzaçəkmə müəssisəsində saxlanılır. Digər oğlu Rahib Hüseynov da, qeyd etdiyimiz kimi, hazırda hakim qarşısındadır. Valideynləri Eminin və Rahibin işi üzrə ədalətli araşdırma aparılmasını istəyirlər. Deyirlər ki, Elnar Əsgərova məxsus 20-30 milyon pulun qara mühasibatlıq hesabatı var. Əsas günahkar Elnar Əsgərov azadlıqda gəzir.

Lətifə Hüseynova Bakı Apelyasiya Məhkəməsində keçirilən son iclasda oğlunun günahsız olduğunu hakimə bildirib, deyib ki, oğlunun məhkəməyə təqdim etdiyi qara mühasibatlığa dair kitablar araşdırılmalıdır. Həmin kitablar üzrə araşdırma aparılsa, məsələnin mahiyyəti üzə çıxacaq.

"Mənim övladlarım günahsızdır. Bunu hamı bilir. Əgər oğlanlarımın günahı varsa, elə onlara göstəriş verənlər də, onlardan faiz alanlar da günahkar olmalıdırlar. Ay Elnar, belə allahsızlıq olmaz, sənə müraciət edirəm, niyə belə şeylər elədin? Elnar, bu işlərin başında sən durdun. Rahibə bu kitabların hamısını sən yazdırmısan. Elnar, bütün bunlar sənin icazənlə olub. O, dəmir yolunda ləyaqətlə işləyirdi. Niyə onu o günə qoydun? Mən sənə dəfələrlə müraciət etdim. Yalan dedin ki, xəbərin yoxdur. Sən dəfələrlə demisən ki, Rahib dəmir yolunda normal işlədiyi yerdə onu bu işə qatdın. Dəmir yoluna verdiyin malların çoxunu onun əli ilə verdirdin. O işlərin hamısının kağızları evdədir. Ev doludur kağızlarla".

Lətifə Hüseynova həmin kitablarda həqiqətdə nə baş verdiyinin göründüyünü də dilə gətirdi: "Əvvəllər də demişəm, yenə də deyirəm. Bu kitablarda Rahib Elnarın icazəsi ilə kimə nə verib, nə qədər pul alıb, faiz verib hamısı yazılıb. O camaatı da Ağır Cinayətlər Məhkəməsində hakim bir-bir çağırdı, dindirdi. Kitabları biz istintaqa verdik. Kitablar 2013-cü ilə qədər Elnarın sədrliyi altında, göstərişi altında yazılıb. Rahib kim idi ki, siyahı tuta? Rahibə kim idi o milyonları verən? Qoşqar bizim evə gəldi, yoldaşıma dedi ki, İsmayıl dayı, Rahibə milyon verməmişəm. Mən çoban oğluna milyon verməmişəm. Səndən çox xahiş edirəm, böyük bacanaqsan, get Arif (Əsgərov) müəllimi başa sal, pullar sənin oğluna verilib. İsmayıl da dedi ki, mən Arifə (Əsgərov) pul verməmişəm ki, gedim ondan pul istəyim. Dedi, mən 10 milyon pul vermişəm, müəyyən hissəsini almışam, müəyyən hissəsini ala bilmirəm. Qoşqar söhbətindən sonra bizi düşmən elan etdilər, qapıya da qoymadılar. Bu kitabların hamısını ekspertə də verdik. Rahib kitablarda kimə nə verib, hamısını yazıb. Hətta Elnara göstərmək üçün özünün maaşını da yazıb. Elnarın işçisi kimi ona hesabat verib. Elnar məni türmə qapılarında qoyub. Bütün bu işlərin başında Elnar durub, mənim 2 oğlumu həbsə o saldırıb".

Arif Əsgərov 2004-2015-ci illərdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri vəzifəsində çalışıb. O, 2015-ci ildə prezidentin fərmanı ilə tutduğu vəzifədən azad edilərək, nəqliyyat nazirinin müavini təyin edilib. Bir müddət əvvəl Nəqliyyat Nazirliyi ləğv edilərək Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə birləşdirilib və o, vəzifəsini itirib.

**E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 61 (7231) 18 mart 2019

# "Azərbaycan insanının qarşısından mənasız maneələr götürülsə..."

## Fazil Mustafa: "Ölkə prezidenti başlatdığı islahatların ruhuna uyğun addım atdı"



**Deputat səfərdə olduğu ərəb ölkəsi ilə bağlı ilginc fikirlərini "Yeni Müsavat"a söylədi**

**Deputat, Böyük Quruluş Partiyasının (BQB) başqanı Fazil Mustafanı aradıq. Sorağını Birləşmiş Ərəb Əmirliklərindən aldıq. Məlum oldu ki, bir həftəlik səfər idman yarışları ilə bağlıdır. Elə imkan düşmüşkən, Fazil bəylə internet üzərindən əlaqə yaradıb "Yeni Müsavat" oxucuları üçün maraqlı müsahibə aldıq.**

***- Fazil bəy, Birləşmiş Ərəb Əmirliklərinə belə uzunmüddətli səfərinizdə məqsəd nədir? Heyətinizdə daha kimlər var?***

- Bu il 14-21 mart tarixində Əbu-Dabidə Xüsusi Olimpiadanın yay oyunları keçirilir. Bizim Xüsusi Olimpiya Komitəsinin prezidenti Şahin Əliyev və komitənin vitse-prezidenti kimi mən nümayəndə heyətinin rəhbərləri kimi buraya gəlmişik. Açılış mərasiminə komitənin işinə böyük dəstək verən gənclər və idman naziri Azad Rəhimov da qatılmışdı. Birləşmiş Ərəb Əmirliyi çox möhtəşəm bir olimpiya yarışına ev sahibliyi edir və yüksək təşkilatçılıq işi ortaya qoyublar. Bildiyiniz kimi, burada idman rəqabətindən daha çox müəyyən zehni problemləri olan idmançıların qaynayıb-qarışması, idmana sevgisi, onlara mərhəmət göstərilməsi önə çəkilir və bu da olduqca diqqətli bir yanaşma tələb edir.

***- Ərəb ölkəsində olmaq hansı hisslər yaradır? Bu ölkədə yaşamaq rahatdırmı?***

- Həcc ziyarəti istisna olmaqla, indiyədək hansısa ərəb ölkəsində bu qədər müddətdə olmamışdım və təəssüratlarım səthi xarakter daşıyırdı. Daha çox da bir Şərq həyatı, qaranlıq-mühafizəkar mühit və s. yaddaşımda yer alıb. Ancaq Birləşmiş Ərəb Əmirlikləri təəssüratlarımı xeyli dəyişdi. Ən azı vizual olaraq modern ölkədir. İqtisadi azadlıqlar həsəd aparılacaq səviyyədədir. İnkişafın anqlosakson modeli hər addımda özünü büruzə verir. Neft ölkəsi olsa da, gəlirləri ölkənin tərəqqisi üçün xərcləməyi bacarıblar. Yol infrastrukturu yüksək səviyyədədir. Mühafizəkarlıq evlərin içində qalır, çöldə geyim, yaşam tolerantlığı, təhlükəsizlik, rifah nəzərəçarpacaq səviyyədədir. Təsəvvür edin, elə bir dövlət qurublar ki, iki milyon yerli əhaliyə səkkiz milyon miqrant xidmət edir. Təbii ki, xidmət edənlər uzaq məmləkətlərinə vəsait də göndərə bilirlər. Uzaq-yaxın Şərqin bütün bölgələrindən əsasən yoxsul insanlar axışıb gələrək xidmət sektorunun yükünü öz üzərlərinə götürüblər. Burada əsl azad iqtisadi zonanın faydasını daha çox sezirsən. Turizm yüksək səviyyədə canlanıb, beynəlxalq ticarət əlaqələri xeyli genişdir. Üstəlik də ərəblər öz milli və dini identifikasiyasını ən azı atributiv olaraq mühafizə edə biliblər. Bir sözlə, burası monarxiya idarəçiliyində olan demokratik dəyərlərə yaxın fərqli bir ərəb ölkəsidir.

***- Azərbaycan idmançılarının nəticələri necədir? Ümumən neçə ölkədən iştirakçı var?***

- Bu oyunlara bizim ölkə də daxil olmaqla 195 ölkənin təmsilçisi qatılıb. Azərbaycanı 15 növ üzrə 74 idmançı təmsil edir. Hələ ki, yarışların ikinci günündə cüdo, ağır atletika və stolüstü tennis növlərində idmançılarımız üç gümüş medal qazanıblar. Üzgüçülük və yüngül atletika yarışları Dubayda keçirilir və yarışlar hələ bir neçə gün davam edəcək və nəticələr barədə məlumatlar media vasitəsilə ictimaiyyətə çatdırılacaq.

***- Maraqlıdır, gündəlik qrafikinizi necə tənzimləyirsiniz? Axı Azərbaycanda sizin fərqli qrafikiniz var idi, idman, mütaliə və s.***

- Şəraitə görə qrafiki tənzimləyirik və təbii ki, vaxtımızın çoxu idmançılarımızın oyunlarını izləməyə, onları ruhlandırmağa, texniki-təşkilati problemlərin həllinə yönəlir. Bununla belə, sübh tezdən ənənəvi idman proqramımı oteldə yerinə yetirirəm, gündəlik mütaliəni də buraxmıram və Bakıdan gətirdiyim kitabları oxuyuram. Ölkə ilə tanışlıq üçün əlimə keçən bütün materialları gözdən keçirirəm, axşamlar piyada gəzirəm və şəhərin təmizliyi və planlılığını görəndə Bakının durumunu xatırlayıb xeyli məyus oluram.

***- Ərəblər barədə Azərbaycan cəmiyyətində xeyli neqativ fikirlər var - eyş-işrət həvəskarı olmaları, ifrata varmaları, var-dövlətləri barədə. Müşahidələr bunu təsdiqləyirmi?***

- Ərəblər geniş coğrafiyaya yayılmış dərin tarixi kökləri olan xalqdır. Bizim baxış bucağından onların həyat tərzinə ümumiləşmiş qiymət vermək məsuliyyətsizlik olardı. Xüsusilə də bizim kimi dünyanın ən gözəl iqlimlərindən birinin dəng gəldiyi ərazidə yerləşən xalqların səhra şərtlərində yaşayan bir xalq haqqında neqativ düşünməsi yanlış olardı. Biz ilin dörd fəslini yaşayırıq, ərəblər iki fəslini. İqlim natamamlığına, səhra iztirabına rəğmən, ərəblər İslam kimi nəhəng dünya mədəniyyəti yaradıblar, bizim hələ ki yaratdığımızı iddia etdiyimiz kültür lokal mahiyyətdədir. Ərəblər səhranı tərk etmədən ona modern görüntü gətiriblər, biz əlimizdə olan dənizi, meşəni, dağı, suyu, kəndi arzulanan səviyyədə insan üçün yararlı formaya sala bilməmişik. Digər tərəfdən, ərəblər də özbəklər, taciklər kimi milli paltarlarını daşımaqdan utanmırlar, bizdə buna ciddi bir kompleks var. Çalğılarını, rəqslərini qoruyub saxlayıblar. Qudurğanlığa gələndə isə, burada da, bizdə də eyni keyfiyyətdə adamlar hər zaman var və bundan sonra da olacaq. Hər halda irəli görüşlü insanları yetərli səviyyədə olmasaydı, 8 milyon yabançını 2 milyon ərəbin rifahı üçün çalışdıra bilməzdi. Ancaq bunların ən azğını, ən aşağı səviyyəlisi belə, axirət qorxusu daşıdığını hiss etdirir.

***- Ərəblər də bizim kimi hasarlamalara maraq göstərirmi? Axı bizdə dəniz də, villaların ətrafları da, yol kənarları da, hətta meşələr də hasarlarla qapadılır və siz də dəfələrlə bu barədə məsələ qaldırmısınız...***

- Ümumi formada ərəblərin mental anlayışı ilə bizdəki durumu müqayisə etmək doğru olmazdı. Bu ölkənin yerli sakinləri, fikrimcə, neft gəlirlərini öz rifahlarının təməlinə yerləşdirə bilmişlər. Burada Şərqin hasar qapalılığı, təbii ki, var, lakin bizdəki qədər ifrata varmır. Xüsusilə də dənizi qapatmaq niyyətində olduqlarını müşahidə etmirsən. Ancaq binaların xeyli hissəsinin görünüşündən şöhrətpərəstlik yarışının əlamətlərini dərhal sezirsən. Bəzən bir-birindən fərqli dizaynda və olduqca yaxın məsafədə inşa edilmiş göydələnlər iri şəhərlərdə adamı sıxır. Gecələr Əbu-Dabidə, Dubayda özünü gur işıqlı bir möcüzələr diyarında hiss edirsən sanki... Maraqlıdır ki, hələ də qarşıma ənənə üzrə axtardığım kitab mağazası çıxmayıb.

***- Fazil bəy, məlum səbəbdən hökumətin hesabatının müzakirəsinə qatıla bilmədiniz. Bəs Baş nazir Novruz Məmmədovun ilk hesabatı ilə tanış oldunuzmu? Artur Rasi-zadənin təqdim etdiyi hesabatlardan fərqli cəhətləri nə idi?***

- Səfərdən öncə hesabatla tanış oldum, bir sıra bəndlərə ötənildəki ilə müqayisəli şəkildə baxdım. Təbii ki, hesabatın strukturunda ciddi dəyişiklik yoxdur, rəqəmlərdə, görülən işlərin adlarında müəyyən dərəcədə yeniliklər var. Novruz Məmmədov, hiss olunur ki, artıq yeni iş sferasına canlanma gətirə bilib və ən azı hökumətin iclaslarının tez-tez keçirilməsi və aktual məsələlərin müzakirə olunması müsbət qiymətləndirilməlidir. Ancaq bizdə Nazirlər Kabinetinin hesabatının müzakirə formatı da qanedici sayılmaz. Bir günlük müzakirədə nə hökumət doğru-dürüst öz fəaliyyətinin əsas detallarını ortaya qoya bilir, nə də deputatlar yetərli vaxt müddətində bu mühüm sənədi təhlil edib təkliflərini irəli sürə bilirlər. Əslində bu müzakirələr ən azı üç gün çəkməlidir. Xüsusilə də ölkədə baş verən dəyişikliklər prosesində həm prezident üçün, həm də hökumət üzvləri üçün bu təkliflərin, tənqidlərin faydalı məqamları olduqca çoxdur.

***- Deputat həmkarınız Fərəc Quliyev bizə demişdi ki, hökumətin hesabatından barıt qoxusu gəlmir. Siz hesabatda nəyin çatışmadığı qənaətindəsiniz? Nələr olmalı idi, amma yox idi?***

- Barıt, yaxud da gül qoxusu kimi bir gözləntim olmasa da, Nazirlər Kabinetinin bu hesabatının bir qədər fərqli formatda olacağını düşünürdüm. Xüsusilə də ölkə prezidentinin başlatdığı islahatların ruhuna daha uyğun forma və məzmunda. Burada hesabatdan daha çox hökumətin bir illik fəaliyyət tarixi ideoloji çərçivədə diqqətə çatdırılır. Fikrimcə, hökuməti islahatların avanqardına çevirmək ən vacib məsələlərdən biridir. Çünki ölkə prezidenti beynəlxalq şərtlərin və daxili durumun nəyi tələb etdiyini çox dəqiq müəyyənləşdirib və olduqca cəsur və faydalı dəyişikliklərə imza atır. Lakin səlahiyyətli məmurlar içində bu islahatlara kampaniya kimi yanaşanlar var və bu prosesin onlar tərəfindən tormozlanması riski hələ də böyükdür. Bu məsələdə radikal qüvvələrlə onların maraqları üst-üstə düşür. Birincilər, öz reallıqdan uzaq ideoloji səltənətinin dağılmasını istəmirlər, ikincilər də imtiyazlı maddi səltənətinin çökməsindən qorxurlar. Fikrimcə, hökumət bu gün sözdə yox, fəaliyyətinin yeniləşməsi ilə prezidentin gerçək dəstəkçisi olduğunu ortaya qoymalıdır.

***- Həmkarlarınız bir sıra məsələləri qaldırdılar, yəqin ki, tanış oldunuz internet üzərindən. Parlamentdəki müzakirələrdə iştirak etsəydiniz, siz diqqəti nələrə çəkərdiniz?***

- Müzakirələrdə çox maraqlı təkliflər səsləndirildi, bunların xeyli hissəsi ilə, sözsüz ki, mən də razıyam. Sosial xarakterli dəyişikləri dəstəkləməklə yanaşı, insanların özlərinin çalışmaları ilə ayaqda durmasını təmin edən yolların açılmasını ilk növbədə vurğulayardım. Azərbaycan insanının qarşısından mənasız maneələri götürsəniz, qısa bir zamanda dövlətin bu qədər sosial yükün altına girməsinə ehtiyac qalmayacaq. İnhisarçılıq, haqsız rəqabət buxovları birmənalı şəkildə sındırılmalıdır, iqtisadiyyatda imtiyazlı kimsə qalmamalıdır, vergi yükü ədalətli bölünməlidir, dövlət büdcəsi üçün "qara deşik" rolunu oynayan şirkətlər özəlləşdirilməlidir. Qida təhlükəsizliyi prioritet məsələ olmalıdır, onkoloji xəstələr reallıqda dövlət hesabına müayinə və müalicə olunmalıdır, ölkə əhalisinin əhəmiyyətli hissəsi xəstəxanaların qarşısında çarəsiz vəziyyətdə növbələrdə qalıb, insanların dərman almağa bir çox hallarda maddi imkanı olmur, bu kimi məsələlərin hökumət səviyyəsində açıq müzakirəsinin keçirilməsini təklif edərdim. Universitetlərin muxtariyyəti məsələsinin vacibliyini diqqətə çatdırardım. Xeyli məsələr var ki, çıxışımda səsləndirməyi düşünürdüm.

***- Son vaxtlar ərəb turistlərin Azərbaycana axını səngiyib. Bu barədə söhbətlər oldumu? Ümumən Azərbaycan ərəblərin nəzərində necə ölkədir, nə danışırlar bizlərdən?***

- Ərəb turistlərin axını ölkəmiz üçün, əlbəttə, faydalıdır. Bunlar özləri məhz turist axını hesabına milyonlar qazanırlar. Bizə də turistlərin gəlişi iqtisadi cəhətdən faydalıdır və çalışıb ildən-ilə daha çox turist cəlb etməliyik. Burada bizim formamızın üzərindən Azərbaycan yazısını oxuyan insanlar tez-tez yaxınlaşıb Bakıda və Azərbaycanın digər bölgələrində olduqlarını, oranı çox bəyəndiklərini söyləyirlər. Yeməklərimizdən xüsusilə ağızdolusu danışırlar. Görünür, toylarımızda iştirak etməyiblər, 15 növ yeməyi iki saat içində yesələr, onların da ağızlarının dadı qaçacaq.

***- Yeni Zellandiyada törədilən terror aksiyası barədə, yəqin, orda da danışılır. Müsəlmanlara qarşı törədilən bu dəhşətli qətliam haqda nə deyə bilərsiniz?***

- Yeni Zellandiyada baş verən illərdir davam islamafobiyanın fərd səviyyəsində vəhşi bir formada gerçəkləşdirilmiş nəticəsidir. Düşünmürəm ki, bu, məhz bir şəxsin mental hərəkətləridir. Bu, əslində yeni bir dini zəmində qovğanın körüklləndirilməsi niyyəti ilə atılan bir siyasi addımdır və arxasında istiqamətləndirici, ilhamverici qüvvələrin olması istisna deyil. Bu hadisədən sonra müsəlmanlar qətiyyən təxribatçı addımlara rəvac verməməli, daha təmkinlə dünyaya barış mesajları verməlidirlər. Bu cür amansız terrora qarşı başqa dinə mənsub insanların sərt təpki ortaya qoyması vacibdir, çünki hadisənin nəticəsi bütövlükdə bəşəriyyət üçün yaxşı heç nə vəd etmir. Allah bütün günahsız terror qurbanlarına rəhmət etsin.

***- Fazil bəy, prezident İlham Əliyev əfv sərəncamını imzaladı və bir çox tanınmış simalar azadlığa çıxdı. Sərəncam barədə nə deyə bilərsiniz?***

- İndiyədək verilən çoxsaylı əfv fərmanı içində bu, fərqli bir özəlliyə sahibdir. Ölkə prezidenti başlatdığı islahatların ruhuna uyğun bir addım atdı. Həbsxanada fərqli görüşlərə sahib insanların qalması yaxşı hal deyil, indiyədək bu adlar üzərindən ölkəmizə əsaslı-əsasız ittihamlar səsləndirilməsinə haradasa bəhanə verirdik. İndi daha ciddi problemlərimizin beynəlxalq müstəvidə müzakirəsinə enerjimizi sərf edəcəyik və bu, həqiqətən də, sevindiricidir. Prezident Novruz bayramının barış aurasına uyğun bir davranış sərgilədi, 400-dən artıq insanın ailəsində bayram sevincinin yaşanmasına xeyli sevindim.

**❑ Elşad PAŞASOY, "Yeni Müsavat"**



# Ktulhu-nun çağırışı

Zamin HACI
zaminhaci@gmail.com

“Biz sonsuzluğun qaranlıq dənizindəki sakit cəhalət adacığında yaşayırıq və uzağa üzmək bizə qətiyyən olmaz” (Lavkraftın həmin hekayəsindən sitat)

**Amerika yazıçısı Hovard Lavkraftın 1928-ci ildə yazdığı “Ktulhu-nun çağırışı” adlı fantastik-qorxu janrlı hekayəsi var. Çox tanınmış əsərdir, dünya mədəniyyətində böyük izlər buraxıb. Hekayə Sakit okeanda guya bir dərin yerdə qədim, dəhşətli şər qüvvənin gizləndiyini, müəyyən vaxtlarda sudan baş qaldırıb dünyada insanları dəli elədiyini, ölüm saçdığını maraqlı, orijinal dillə təsvir edib.**

3-4 gün qabaq Yeni Zelandiyada xristian terrorçu manyak məscidlərə girib 50-yə yaxın insanı öldürəndə mən o hekayəni, Lavkraftı xatırladım. Nəyə görə? Həm də ona görə ki, Lavkraftın əsərində okeanın dibinə çəkilmiş, Rlyex adlı şəhərdə yaşayan o şər tanrısı Ktulhu-nun konkret ünvanı da verilib və uzunluq-en dairələri ilə təyin edəndə o yer hardasa Yeni Zelandiyaya yaxın bir nöqtəyə düşür.

Mən bayaq “xristian terrorçu” ifadəsini qəsdən yazdım, çünki dünyada “müsəlman terrorçu” ifadəsi varsa və bu reallıqdırsa, biz başqa reallığı niyə gizlətməli, ütüləməliyik? Zelandiyadakı terrorçu da xristianlıq naminə öldürdüyünü bildirirdi. Nə qədər yazaq, deyək ki, terrorun dini, milliyyəti yoxdur? Çıxırlar axı. Bəşəriyyətin din, iman adına öldürdüyü insanların, axıtdığı qanların sayı-hesabı itib.

Ümumiyyətlə, insan əyləncə, mənəvi zövq üçün öldürən yeganə canlı sayılır. Planetdə bu baxımdan “tayımız-bərabərimiz” yoxdur. Heyvanlar ancaq yeyəcəyi qədər, iştahı üçün, qarnını doydurmaq üçün öldürər. Ən pisi isə odur ki, bu qanlar batmır, unudulmur, bir gün heç gözlənilməyən yerdən şər yenidən baş qaldırır.

Yeni Zelandiya dünyanın ən inkişaf eləmiş dövlətlərindən biridir. BMT İnsan İnkişafı İndeksində 16-cı yerdədir (müqayisə üçün Azərbaycan 78-ci yerdədir). Sözün əsl anlamında cənnətdir (bu yazıda dini terminlərdən qaça bilmərik). Təmiz təbiət, güclü iqtisadiyyat, anlayışlı cəmiyyət (misal üçün, Yeni Zelandiyanın dövlət olaraq adı əslində öz yerli xalqı maorilərin dilində Aotearoa-dır), sözün əsl anlamında ictimai-siyasi sabitlik qurublar. 2018-ci ildə Yeni Zelandiyada cinayətlə öldürülən - dünyada ölüm hökmü qalırkən bu cür tavtoloji ifadələrə də məcburuq - insan sayı 35 nəfər olub. Deməli, ötən həftəki məscid basqınlarında 49 adam öldürülüb və cəmi 1 gündə illik bütün ölkə “hesabı” da ötülüb! Zelandiyalıları sarsıdan həm də bu cür qayğısız mühitdə yaxalanmalarıdır. Yenə müqayisə üçün, Azərbaycanda 2018-ci ildə qəsdən adam öldürmə cinayəti qurbanlarının sayını yazıram: 159 nəfər.

Terrorçunun, yeri gəlmişkən, zelandiyalı yox, avstraliyalı olması da diqqəti çəkir. O məscidlərdə öldürülən müsəlmanlar isə bəlkə dünyanın ən yumşaq, humanist, tolerant müsəlmanları idilər. Bir örnək də verə bilərəm: İraq-Şam İslam Dövləti adlı terrorçu qruplaşma ötən illərdə Orta Doğuda at oynadanda, qan töküb baş kəsəndə onun sıralarına hər ölkədən qoşulan manyakların sayı təxminən məlum idi. Çoxu ərəb ölkələrindən olsa da, Avropadan, Rusiyadan, hətta ABŞ və Cənub Şərqi Asiya ölkələrindən xeyli müsəlman ora qoşulmuşdu. Azərbaycanın özündən rəsmi şəkildə 100-dən çox quldur etiraf edilmişdi. Arvadlı-uşaqlı, pis çıxmasın, köçlü-köçəbəli, itli-pişikli ora gedirdilər. Ancaq Yeni Zelandiyadan İŞİD-ə çox az adam qoşulmuşdu, heç düzü mən bu haqda hansısa xəbər də tapmadım.

O cümlədən məsciddə qatilin hadisəni törədərkən çəkdiyi videonu izləyənlər onun soyuqqanlı, sanki kompüter oyunu oynayırmış kimi insanları güllələyib öldürməsindən sarsılırlar. Bəlkə biz son illər internetdə, kompüterlərdə yayılan çoxlu sayda bu cür adam öldürmə oyunlarına diqqət eləməliyik, son qoymalıyıq? Hara baxırsan uşaqlar, gənclər cürbəcür savaş oyunları, GTA, Doom, Quake və sairə şuterlər (ingiliscə shooter - atıcı sözündən gəlir) yayılıb. Bu da dünya insan haqları müdafiəçilərində narahatlıq doğurur, Almaniyada isə GTA oyununa dövlət səviyyəsində qadağa və senzuralar var.

Məscidlərə basqın edən tipin maşında oxutduğu serb mahnısı, tüfəngin üstünə və patron qutularına yazdığı müxtəlif terrorçuların və qədimdə türklərə, müsəlmanlara qarşı döyüşən kəslərin adları da diqqəti çəkib. Kimin ağlına gələrdi ki, 90-cı illərdə Serbiyada soyqırım törədən manyak Radovan Karaciçin “şərəfinə” qoşulan mahnı 2019-cu ildə Yeni Zelandiyada qətliam saundtreki olacaq? Bu mənə başqa əhvalatı, deyilənə görə, tarixi faktı da xatırlatdı. Atatürkün Britaniya səfirliyinin attaşesinin ona niyə pis nəzərlə baxdığını soruşması, “atası Çanaqqalada öldürülüb” cavabını alanda “soruşun atası Çanaqqalada nə gəzirdi” deməsini. Hərçənd, Atatürk savaş zamanı ölən xarici əsgərlərə, o cümlədən yeni zelandiyalılara hörmətlə yanaşıb, onları həlak olan türk əsgərlərindən heç zaman ayırmayıb.

İnsanlar qisas, qan axıtmaq yanğısını unutmurlar. Gürcülər, serblər, türklər, ermənilər, ingilislər, xorvatlar, almanlar, ruslar... Hara baxsan ölüm kultu qalır, unudulmur, 500 il qabaq qınından çıxan qılınc indi də qan axıdır.

**Keçən həftə Gürcüstan prezidenti Salome Zurabişvili Ermənistanda səfərdə oldu. Ondan təxminən 10 gün öncə isə o, Bakıda idi və səfər zamanı iki ölkənin strateji tərəfdaşlıq əlaqələrinin ruhuna uyğun mövqe bildirmişdi. Zurabişvilinin xüsusən də “Azərbaycan və Gürcüstan eyni dərəcədə işğaldan əziyyət çəkir” bəyanatı diqqət çəkmiş, təqdir olunmuşdu.**



# ABŞ-dan “vur!” izni, Bakının müharibə haqqı

## Okeanın o tayından verilən incə mesaj; 2019 konfliktin həllində “qırılma ili” ola bilər; işğalçını sülhə məcburetmə ssenariləri masa üzərində

Təəssüf ki, Gürcüstanın dövlət başçısının Bakıda nümayiş etdirdiyi prinsipiallığı İrəvanda görmədik. “Regional münaqişələrin hamısı ölkələrin ərazi bütövlüyü əsasında həllini tapmalıdır” bəyanatını onun dilindən eşitmədik. Zurabişvili yalnız Dağlıq Qarabağdakı separatçı rejimin nümayəndələrinin Abxaziya və Cənubi Osetiya separatçıları ilə dostluğundan dolayı Ermənistan rəhbərliyinə etirazını bildirdi. Yəni sırf öz ölkəsinin ərazi bütövlüyündən yana narazılıq ifadə elədi. Bundan əlavə, İrəvanda o, Azərbaycanı və Türkiyəni incidəcək daha bir addım atdı: saxta soyqırım abidəsini ziyarət edib, ora əklil qoydu. Halbuki, buna o, məcbur deyildi...

*****

Bu da indi Azərbaycan və Türkiyənin hesabına ayaqda qalan Gürcüstanın ikiüzlü mövqeyi. Zurabişvilinin səfəri bir daha göstərdi ki, Azərbaycan və Türkiyə dost-müttəfiq seçimində olduqca diqqətli olmalıdır. Ancaq o da var ki, azərbaycanlılara qarşı vuruşmuş erməni hərbi canisinə Axalkalikidə büst qoyulmasına hələ də seyrçi qalan qonşu və yaxın Gürcüstanla müqayisədə uzaq ABŞ-ın Qarabağla bağlı mövqeyi bizdən ötrü qat-qat böyük önəmdədir.

Təqdirəedicidir ki, ABŞ-ın xarici siyasət idarəsi sayılan Dövlət Departamentinin dünyada insan haqlarının 2018-ci ildəki vəziyyətinə dair yaydığı hesabatında Ermənistanı işğalçı adlandıran bənd yer alıb. Həmin bənddə deyilir: “Separatçılar Ermənistanın dəstəyi ilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin əksər hissəsini və ona bitişik 7 rayonu nəzarətdə saxlamaqda davam edirlər”.

Bu, diplomatik dildən tərcümədə sülh danışıqları səmərə verməzsə, Bakıya ABŞ-ın “vur!” iznidir. Hər halda, ABŞ-ın da qəbul elədiyi BMT Nizamnaməsinə görə, ərazisi işğala məruz qalan ölkə istənilən üsulla öz ərazi bütövlüyünü bərpa eləmək haqqına sahibdir. Üstəgəl, BMT Təhlükəsizlik Şurasının 1992-93-cü illərdə Dağlıq Qarabağa dair qəbul elədiyi və Ermənistanı işğalçı kimi tanıyan 4 qətnamə (822, 853, 874 və 884) var və heç kim onları ləğv eləməyib. Avropa Parlamentinin (Avropa Birliyinin əsas qurumu), Avropa Şurasının (AŞ PA), NATO Parlament Assambleyasının, habelə İslam Əməkdaşlıq Təşkilatının və Qoşulmamaq Hərəkatının Bakıya “vur!” rüsxəti verən analoji sənəd-qətnamələri də öz yerində.

Doğrudur, Dağlıq Qarabağdakı kriminal rejimin başçısı Bako Saakyan vaxtaşırı ABŞ-a da səfərlər edir, Konqresdə sülənir. Habelə, bəzi ermənipərəst konqresmenlər işğal altındakı Qarabağa zaman-zaman qanunsuz səfərlər ediblər. Lakin bizim üçün ən vacibi ABŞ-ın rəsmi dövlət mövqeyidir. Rəsmi Vaşinqton isə Azərbaycanın ərazi bütövlüyünə hörmətini mütəmadi şəkildə bəyan edib, bunu sənədlərdə əks etdirib, separatçı bölgədə indiyədək keçirilən heç bir “seçki”nin, “referendum”un legitimliyini tanımayıb. Dövlət Departamenti isə bu il də öz sənədində Dağlıq Qarabağ və ətraf 7 rayonun erməni işğalı altında olduğunu təsbit edib.

Bundan əlavə, ötən ilin oktyabrında ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton İrəvanda olarkən açıq mətnlə bildirdi ki, əgər baş nazir Nikol Paşinyan ölkəsinin rifahını, Rusiya asılılığından və blokadadan qurtulmasını istəyirsə, o zaman öncəliklə Azərbaycan və Türkiyə ilə münasibətləri qaydaya salmalı, Qarabağ məsələsində dönüşə nail olmalıdır. Analoji tələb bu ilin yanvarında prezident Donald Trampın Paşinyana göndərdiyi təbrik məktubunda yer almışdı...

*****

Söz yox ki, Azərbaycan sonsuzadək Ermənistanın ərazilərimizdən çıxmasını gözləməyəcək. Bakı milyardlar xərcləyib aldığı müasir silahları, döyüş sistemlərini yalnız vitrinə qoyub paslatmaq və ya yalnız hərbi təlimlərdə və hərbi paradlarda nümayiş etdirmək niyyətində deyil. Bu silahlar ərazi bütövlüyümüzü bərpa eləmək üçün alınıb. Ermənistan tezliklə sülhə gəlməzsə, Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünü təmin eləməyə tam hazırdır. Silahlı Qüvvələrimizin keçən həftə başa çatan, sırf hücum taktikasının cilalanmasına hesablanmış növbəti 5 günlük möhtəşəm təlimi düşmənə bu xüsusda daha bir sanballı işarədır.

Azərbaycan Ordusunun üstün gücü əcnəbi hərbi və siyasi analitiklər tərəfindən də etiraf olunur. Məsələn, hərbi təlimlərin davam etdiyi günlərdə (11-15 mart) ölkəmizdə olmuş rusiyalı tanınmış tarixçi-analitik Oleq Kuznetsov ordumuzun bütün gücünə şahid olduğunu söyləyib (axar.az). Onun sözlərinə görə, işğalçı Ermənistan Müdafiə Nazirliyinin Azərbaycandakı təlimlərə kəskin reaksiya verməsinin səbəbini yalnız bir sözlə şərh etmək olar “Qorxu!”

“Bu təlimlər birmənalı şəkildə Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan ordusu üzərində böyük hərbi-texniki üstünlüyə malik olduğunu göstərdi. Hazırda Azərbaycan Silahlı Qüvvələri yüksək texnologiyalı silahlara sahibdir. Ən əsası, Bakının bu cür müasir silah növlərinə sahib olmaqla yanaşı, bu texnikadan dəqiq şəkildə istifadə etmək qabiliyyətinə sahib olmasıdır. Manevrlərin miqyası göstərir ki, Azərbaycan Ordusu Ermənistanın sülhə və ya işğal olunmuş ərazilərin geri qaytarılması üçün danışıqlar prosesinə məcbur edilməsinin son elementlərini işləyib hazırlayır” - ekspert vurğulayıb.

Tarixçi-analitikin qənaətincə, son təlimlərin ideyası Dağlıq Qarabağın azad edilməsi uğrunda müharibə ssenarisinin işlənib hazırlanması olub. “İrəvanda bunu hərbi təhdid kimi qəbul edirlər. Ancaq rus ekspert kimi mənim fikrimcə, bu, Azərbaycan tərəfinin Ermənistana sonuncu sülhməramlı jesti, danışıqlar masasına əyləşmək üçün ucadan çağırışıdır. Bu gün üçün danışıqların gündəmində sadəcə, bir şey dayanır: Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və Qarabağda yaşayacaq erməni əhalinin siyasi azadlıqlarının təmin edilməsi”.

Bu xüsusda 2019 doğrudan da Qarabağ məsələsi üçün “qırılma ili” ola bilər. Bunun böyük sülhün xeyrinə olacağı, yoxsa böyük müharibəni labüd edəcəyi isə Ermənistan iqtidarının seçimindən asılı olacaq. İstənilən halda, düşməni sülhə məcburetmənin hər iki ssenarisi artıq masa üzərindədir. Bakının masası üzərində...

❑ **“Yeni Müsavat”ın analitik xidməti**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 61 (7231) 18 mart 2019



# Liderlərin gözlənilən kritik görüşü, iflas olan "format oyunu"

## Azərbaycan xalqını deyil, erməniləri sülhə hazırlamaq lazımdır, çünki...; **politoloq:** "Ermənistan və Qarabağ ermənilərini anladıqları dildə başa salmaq gərəkdir..."

**Ermənistanın 1 nömrəli müttəfiqi Rusiya da Nikol Paşinyanı məyus elədi. Rusiya XİN-in sözçüsü Mariya Zaxarova bəyan elədi ki, Dağlıq Qarabağa dair format dəyişikliyi yalnız münaqişə tərəflərinin qarşılıqlı razılığı əsasında mümkündür. Yəni separatçı rejimi birbaşa sülh prosesinə qoşmaqla həm də Ermənistanı işğalçı yarlığından qurtarmağa çalışan Paşinyana növbəti dəfə daha aydın şəkildə bildirildi ki, məsələ yalnız Bakının iradəsinə bağlıdır.**




Rəsmi Bakının mövqeyi isə çoxdan bəllidir. Bunu son olaraq Azərbaycan paytaxtında ötən həftə keçirilən VII Qlobal Bakı Forumundakı çıxışında prezident İlham Əliyev bir daha qəti şəkildə düşmən tərəfə anlatdı. Dövlət başçısı Qarabağla bağlı formatın dəyişdirilməsinin mümkünsüz olduğunu söylədi və bunu danışıqlar prosesini bloklamaq, status-kvonu uzatmaq cəhdi kimi qiymətləndirdi. Onu da bildirdi ki, danışıq xətrinə danışıq aparılmamalı, nizamlama prosesi Azərbaycan torpaqlarının azad edilməsinə gətirməlidir.

İşğaldakı torpaqlar isə iki yolla azad oluna bilər. Onlardan biri müharibə, digəri dinc nizamlamadır. Azərbaycan təbii ki, güc variantını həmişə ehtiyatda saxlayır və ümid edir ki, "əli azərbaycanlıların qanına batmayan" Nikol Paşinyn nəhayət, özündə siyasi iradə tapıb öz xalqını ədalətli sülh anlaşmasına hazırlaya biləcək.

Əfsus ki, bunun işartıları hələ ki görünmür. Hələ ki, Paşinyan daha çox "Azərbaycan xalqının sülhə hazırlamağın" vacibliyindən dəm vurur. Halbuki Azərbaycan xalqını sülhə hazırlamağa ehtiyac yoxdur. Çünki bizim xalq qeyri-adi, beynəlxalq hüquqa zidd bir şey istəmir. Belə qanunsuz istək-arzu ilə ermənilər yaşayırlar. Deməк, ilk növbədə erməni xalqı sülhə hazırlanmalı, ona yad torpaqları zəbt etməklə xoşbəxtliyə çatmağın mümkünsüzlüyü başa salınmalıdır. Bunu isə ermənilərin legitim rəhbəri kimi məhz Nikol Paşinyan edə bilər...

*****

Şübhəsiz ki, gec-tez belə də olacaq: ermənilər mütləq acı gerçəyi, qazandıqları "Pirr qələbəsi"nin mahiyyətini dərk edəcəklər. Ona kimi isə münaqişə tərəfləri arasında ən yüksək səviyyədə təmasların keçirilməsi qaçılmaz olacaq. Azərbaycan və Ermənistan rəhbərləri - İlham Əliyev və Nikol Paşinyanın ilk rəsmi görüşünə bu xüsusda mühüm önəm verilir. ATƏT-in Minsk Qrupu həmsədrlərinin son bəyanatından da göründüyü kimi, belə bir görüş heç də uzaq olmayan zamanda reallaşa bilər. Lakin onun yeri və vaxtı haqda hələlik bilgi yoxdur.

Bu arada Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan Nikol Paşinyanla İlham Əliyevin görüşünün yerini və vaxtını açıqlamaqdan imtina edib. Nazir bu məlumatı tərəflərin eyni vaxtda açıqlayacağını deyib. Sitat: "Hər şeyi razılaşdırıb sonra eyni vaxtda bəyan edəcəyik. Bu məqam hələ gəlib yetişməyib ki, biz bəyanatla çıxış edək. Burada tərəflər arasında qarşılıqlı hörmət məsələsi ondan ibarətdir ki, biz razılaşdırılmış şəkildə görüşün yeri və vaxtı barədə eyni vaxtda elan edəcəyik. Hazırda bu istiqamətdə iş davam edir", -deyə o əlavə edib.

Liderlərin qarşıdakı, kritik sayılan görüşünün Qərb şəhərlərinin birində, yoxsa Rusiyada reallaşacağı da görüşün mümkün nəticələri kontekstində az əhəmiyyət kəsb eləmir. Eləcə də qarşıdakı görüşün gündəliyi mühüm önəm kəsb edir.

Xatirladaq ki, VII Qlobal Bakı Forumundakı çıxışında Azərbaycan prezidenti İlham Əliyev danışıqların mütləq səmərəli, yəni nəticəyönümlü olmasının da vacibliyini vurğulayıb. Başqa sözlə, bununla qarşı tərəfə anladılıb ki, əgər Paşinyan iqtidarı da səmərəsiz təmaslar hesabına işğal rejimini uzatmağı, vaxt udmağı düşünürsə, ciddi şəkildə yanılır. Ona görə ki, Azərbaycanın gözləmə limiti artıq bitib. Bunun davamı ya sülh danışıqlarında ciddi dönüş olmalıdır, ya da müharibə.

*****

"Paşinyanın danışıqların formatını dəyişdirməsinə dair təklifinin üç əsas məqsədi var". Bu sözləri axar.az-a açıqlamasında QAFSAM-ın sədr müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru Nazim Cəfərsoy Qarabağ konflikti ətrafında son durumu şərh edərkən deyib. Onun sözlərinə görə, birincisi, bununla daxili siyasətdə Qarabağ kartının özünə qarşı istifadə imkanını məhdudlaşdırmaq istəyir. "İkincisi, beynəlxalq siyasətdə Ermənistanın Qarabağda baş verənlərə dair məsuliyyətini azaltmaq, hətta mümkünsə, bu məsuliyyətdən qaçmağa çalışır. Üçüncüsü və ən əsası, müzakirələrdə Azərbaycana qarşı mövqeyini Qarabağ ermənilərı üzərindən gücləndirmək niyyətindədir", - ekspert bildirib.

Politoloq vurğulayıb ki, ancaq bu həmlə Azərbaycana müzakirələr masasına daha iki güclü "kart" qoymaq imkanı verir: "Birincisi, Azərbaycan da Ermənistandan qovulan azərbaycanlıların hüquqlarını müzakirə masasına gətirməlidir. Digər tərəfdən, müharibə Azərbaycan torpaqlarında fəsadlar yaradıb. Bunu nəzərdən qaçırmaq olmaz. Bu çərçivədə müharibənin verdiyi fəsadları Ermənistandan (və o masada tərəf kimi oturmağı çox istəyirlərsə, Qarabağ ermənilərindən) tələb etməliyik. Bu mövzu aktuallaşdırılmalıdır".

Politoloq hesab edir ki, mövcud reallıqlarda bu, mümkün görünməyə bilər: "Ancaq format dəyişikliyi istəyən Ermənistan və Qarabağ ermənilərinə bunun nə mənaya gələcəyini anladıqları dildə başa salmaq lazımdır. Bu məsələləri danışıqlarda diplomatik bir həmlə kimi gündəmə gətirdiyimiz gün ermənilər format dəyişikliyi mövzusunu birdəfəlik bağlayacaq".

"Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlar formatı dəyişdirilə bilməz. Danışıqlar məhz Ermənistanla Azərbaycan arasında aparılır. Azərbaycanın münaqişənin həlli ilə əlaqədar mövqeyi, Qlobal Bakı Forumun açılışında dövlət başçısı tərəfindən bir daha bəyan edildi". Bunu Azərbaycan Prezidenti Administrasiyasının (PA) Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. H.Hacıyev status-kvonun dəyişdirilməli olduğunu vurğulayıb: "Azərbaycanın münaqişənin həlli ilə bağlı nümayiş etdirdiyi konstruktiv mövqe də xüsusi olaraq təqdir edilir".

O, Azərbaycan çox uğurlu regional əməkdaşlıq modeli qurduğunu və bu model səmərəli əməkdaşlığa əsaslandığını söyləyib. "Bu, Azərbaycanın maraqlarına xidmət etməklə bərabər, bizim tərəfdaşlarımızın, qonşularımızın maraqlarına da xidmət edir. Burada biz nəqliyyat dəhlizlərini, enerji layihələrini qeyd edə bilərik. Bütün bu proseslərdən kənarda qalan isə Ermənistandır. Ermənistanın indiki hakimiyyəti iqtisadi islahatlar həyata keçirmək istəyirsə, öz qonşularının işğal olunmuş Azərbaycan ərazilərindən çıxarmalı və qonşu dövlətlərlə sivil şəkildə davranaraq mehriban qonşuluq siyasəti həyata keçirməlidir", - deyə o əlavə edib.

Beləliklə, hərb, yoxsa sülh seçimini yenə məhz Ermənistan etməlidir.



# Hərbi hissələrdə "Açıq qapı" günü keçirilir

**Novruz bayramı ərəfəsində Azərbaycan Ordusunun tabeçiliyində olan bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirilir.**

Musavat.com Müdafiə nazirliyinin saytına istinadən bildirir ki, tədbir çərçivəsində əsgər yaxınları, ictimaiyyət nümayəndələri hərbi hissələrdə yaradılan yaşayış, məişət şəraiti ilə tanış olur, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalara baş çəkirlər.

"Açıq qapı" günündə hərbi hissə komandanlıqlarının valideynlərlə görüşlərinin keçirilməsi, onları maraqlandıran məsələlərin müzakirə edilməsi, konsert proqramları və Novruz bayramı münasibətilə digər mədəni-kütləvi tədbirlərin təşkili nəzərdə tutulub.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 61 (7231) 18 mart 2019



# Atalı-analı uğur

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**O gün "Yeni Müsavat"ın Facebook və Youtube üzərindən canlı yayımlanan debatlarından birində maraqlı hadisə baş verdi. Mən deyim, "Hafiz Hacıyevin ayaqqabısını çıxardığı veriliş", siz anlayın nə demək istədiyimi. Çün o qədər veriliş, ilginc polemika, ADP sədri Sərdar Cəlaloğlunun siyasi ittihamları qalıb bir qıraqda, hər kəs Müasir Müsavat Partiyası rəhbərinin ayağından çıxardığı ayaqqabısından danışır.**

Hələ bu, azmış kimi, bəndənizi də "Hafizin ayaqqabısını çıxardığı verilişdəki xanım" adlandırdı o gün bir nəfər. Mən bəzi tamaşaçıların həmdən-həmə deyildiyi halda, bəmdən-bəmə anladığının dəfələrlə şahidi olmuşam. Bu da onlardan biri. Amma sözüm onda yox. Siz verilişdə olanları izlədiniz. Amma mən veriliş başlamadan yaşananlardan danışım.

Deməк, izləyənlər bilir. Veriliş öncəsi studiyaya qonaqların sayına uyğun olaraq və təbii ki, aparıcı üçün də bir stəkan çay gətirilir. Debat zamanı boğazı quruyan, susayan, əsəbləşən....içsin deyə. Bu dəfə də ənənə dəyişmədi. Amma Hafiz bəy fincanları dəyişdirdi. Dedi ki, "mənim qabağıma qoyduğunuz fincanı özünüz götürüb için". Təəccübləndiyimizi görüb əlavə etdi ki, bəs o hardan bilsin, bəlkə çayın içinə zəhər qatılıb? Elə-beləcə də dedi. Onun qarşısına qoyulan çayı bəndəniz içdi, öz fincanını da ona verdi. Debat da bundan sonra başladı, əmin-arxayın.

Düzdü, biz həmin vaxt onun bu ehtiyatlılığına güldük. Digər əksər bəyanatları kimi, şişirdilmiş göründü gözümüzə. Amma dostlar dedi ki, bəzi partiya rəhbərləri hətta toya gedəndə də bu qaydaya riayət edir. Öncə sürücüləri onların yeyəcəyi yeməkdən yeyib, çaydan içir, sonra onlar. Dünyanın tarixində, xüsusən də saray dönəmlərində ölkəni idarə edən şəxslərin təcrübəsində belə hallar geniş yayılıb. Zəhərlənmələrin qarşısını almaq üçün padşahlar, daha sonra isə prezidentlər özlərini bu formada qoruyublar. Amma bizdə, amma bizim kimi müxalifətin təsir gücünün sərhədləri aşmadığı bir ölkədə bu qoruma instinkti mənə nəyə görəsə gülməli gəlir. Siyasətçi özünü qorumalı, özünü hamıdan güclü görməli və siyasi ambisiyalarını da təvazökarlıq edib gizlətməməlidir.

Amma baxırsan, 400-ə yaxın məhbus azadlığa çıxıb. Hərəsi bir tərəfdən deyir, mənim xidmətimdir. Biri deyir mən bu barədə status yazmışdım, o biri deyir, sosial şəbəkədə örtük şəklim onlar idi, başqası deyir, mitinqdə qışqırmışdım... Tamam, anladıq məğlubiyyət yetim olur, qalibiyyətə isə hər kəsə sahib çıxmağa çalışır. Amma bu qədər də yox ki. Bizdə ölçü hissini itirmək hər zaman gördüyümüz mənzərədir. Heç kəs öz işinin tələb etdiyi öhdəliklərlə məşğul olmaq istəmir. Özünə lupa ilə baxmaq, funksiyasını şişirtmək, uğur piroqundan ən böyük payı öz qabağına çəkmək... İllərdir belə olmayıbmı?

Məsələn, Şəki xəstəxanasında bir neçə tibb bacısı mahnı sədaları altında oynayıb, bunu videoya çəkib paylaşdığı üçün işdən qovulub. Sözün düzü, bu sayaq xəbərlərdən birini aylar öncə özüm tərcümə etmişdim. Türkiyədə baş vermişdi, amma tibb bacıları reanimasiyada yatan bir yaşlı qadının yanında göbək atıb, bunu videoya çəkdikləri üçün qovulmuşdular. O situasiya anlaşılan idi. Çünki ortada ölüm ayağında olan xəstə və onun yaxınlarının hisslərinə gülərcəsinə rəqs edən bir neçə tibb işçisi vardı. Bizdə isə gülmək də, əylənmək, rəqs etmək də qadağan imiş sən demə. Tibb bacıları nahar fasiləsində bu rəqsi etdiklərini desələr də, onları dinləyən olmayıb. Halbuki bu günə qədər ölkəmizdə yanlış müalicə, yanlış əməliyyat, qüsurlu müayinə... nəticəsində bir ağ xalatlının da işdən qovulması barədə eşitməmişik. Adına Bakı deyilən paytaxtda "ölüm xəstəxanası" deyilən bir neçə xəstəxana var.

İllər öncə Şəkidə istirahət edəndə uşaqlar xəstələnmişdi və qızdırmaları günlərlə düşmürdü. Gəzmədiyimiz xəstəxana qalmadı. Həkimlərin evinə qədər gedib çıxdıq, amma nafilə. 10 günlük tətil şəkili və qaxlı həkimlər sayəsində zəhərə döndü. Nə bilmək olar, bəlkə də o vaxt çıxarılmalı olan tibb personalı illər sonra ironik şəkildə cəzalandırılıb. Türkiyəli yazarlardan birinin təbiri ilə desək, "demokrasi de güzel kadınlar gibidir. Gec geliyor güzel memleketimize..."

Yeni hər kəs öz işinin haqqından gəldiyi zaman bu ölkə arzuladığımız kimi olacaq. Heç kimi özünü qədərindən artıq böyütməyəndə, məşğul olacağı işin adını unutmayanda, boynuna düşəni layiqincə yerinə yetirəndə rəvan tərəzisi düzünü göstərəcək. Əks halda... Gülməyə, güldürməyə davam...

# İcra başçısı konserv zavodunun 150 səhmdarını çölə atdırıb

## Xudatda müəssisənin 58 hektarlıq torpağı, kooperativləri, uşaq bağçaları satılıb; zavod müdiri nə səhmdarların haqqını verir, nə yerli adamları işə götürür: "Ümidimiz prezidentədir..."

**Xudatda müəssisənin 58 hektarlıq torpağı, kooperativləri, uşaq bağçaları satılıb; zavod müdiri nə səhmdarların haqqını verir, nə yerli adamları işə götürür: "Ümidimiz prezidentədir..."**

Xudatın konserv zavodu daha xudatlıların deyil. Onlara bu müəssisədə nə iş verilir, nə də səhmdarlarının pulları ödənilir. Həftəsonu rayonda olarkən söhbətləşdiyimiz bir qrup səhmdar belə deyir.

Onların sözlərinə görə, zavod 1970-ci ildə fəaliyyətə başlayıb, tərəvəz istehsalı ilə məşğul olub. Müəssisənin qara günlərinin təməli isə 1998-ci ildə qoyulub.

Sovet vaxtı 5000-ə yaxın işçisi, 200 kooperativi, uşaq bağçaları, hektarlarla torpağı olan zavod müstəqillikdən sonra hissə-hissə "əriməyə" başlayıb.

Səhmdarlar deyirlər ki, müstəqilliyin ilk vaxtlarında zavodun fəaliyyəti axsamağa başlasa da, 1999-cu ilə qədər müəssisəni birtəhər ayaq üstə saxlamağa nail olublar. Amma bundan artığına da gücləri çatmayıb.

İqtisadiyyat Nazirliyinin balansında olan zavodun qapıları bir də 2010-cu ildə açılıb, di gəl xudatlıların üzünə yox...

Belə ki, Naxçıvandan Xudata gələn iş adamı İsmayıl Səfərov zavodu alıb, spirtli içkilər istehsal etməyə başlayıb.

Səhmdarlar deyirlər ki, xeyirli olsun, bir sözümüz yoxdur: "Lakin bu 9 il ərzində ilk növbədə bizimlə hesablaşmaq, səhmdarların haqqını qaytarmaq, kimisinin özünü, kimisinin övladını bu zavodda işlə təmin etmək lazımıydı".

Zavodu alan İ.Səfərov isə 150 səhmdarın nə sözünü eşidib, nə işə götürüb, nə də Xaçmaz Rayon Məhkəməsi səhmdarların qaldırdığı iddia üzrə işə baxıb. Əksinə, kooperativlər, bağçalar belə satılıb. Kəsəsi, zavod müdiri deyib ki, "Xudatda mənəm, Bağdadda kor xəlifə".

Onun bu arxayınlığını isə Xaçmazın icra başçısı olan həmyerlisi Şəmsəddin Xanbabayevin himayədarlığı ilə izah edirlər.

Deyilir ki, İH başçısı iş adamının arxasında dayanıb və səhmdarların şikayətini sayan yoxdur. Əvəzində isə zavoda əksəriyyəti şimal bölgəsindən olmayanlar, qeyri-xudatlılar işə götürülür.

Səhmdarlar deyirlər ki, İ.Səfərov xudatlıları zavodda işə götürməklə, rayonda işsizlik problemini müəyyən dərəcədə həll etməklə prezidentə böyük yaxşılıq etmiş olardı: "O vaxt Cəlilabaddan olan bir iş adamı - Şamil müəllimin əli ilə avadanlıq alıb zavoda gətirdilər. Buna görə 3 milyon yarım vəsait xərclənmişdi. Sonra onunla arasında nə oldusa, Şamil müəllim uzaqlaşdı.

2010-cu ildə iclas keçirildi, İsmayıl müəllim bütün idarəçiliyi əlinə cəmlədi, zavodun darvazalarını bağladı, bir adamı içəri buraxmadı.

Nəinki biz səhmdarlara, heç yerli adamlara da iş vermədi", - deyə səhmdar Qalib Salmanov bizimlə söhbətində bildirir.

Onunla həyat yoldaşı zavodda səhmdardırlar və deyir ki, zavoda işçilər başqa bölgələrdən gətirilir: "Amma bizə iş verilmir, qoyduğumuz depozitlər var, pullarımız qaytarılmır. Burada işləyən 150, işləməyənlərlə birlikdə 500-ə yaxın səhmdar var.

Əlavə olaraq, 58 hektar yarım torpağımız olub, rəhmətlik Qüdrətdən sonra mən müdirlik eləmişəm. İş olmayanda camaat həmin torpaqda tərəvəz əkirdi, gətirib zavodda istehsal edirdik. Bu adam isə həmin torpağı 200 minə satıb. Xaçmaz-Xudatda hegemonluq edən icra başçısı Şəmsəddin Xanbabayev də onun arxasındadır. Xaçmaz prokurorluğuna müraciət eləmişik. Müraciətdə səhmdarların hüquqlarının pozulduğunu bildirmişik. Cavab gəlib ki, məktubunuz dəftərxanaya alındı. Vəssalam.

2012-ci ildə Xaçmazın məhkəməsinə müraciət eləmişik. Yalandan dedilər ki, guya ərizə düz yazılmayıb, sənədlər qaytarıldı. Bu adam məhkəməyə də təsir göstərir, bizim işimizə baxılmır.

Səhmdarlar, baş mühasib işləmiş şəxslər apelyasiya şikayəti veriblər. Ona görə istəyirik ki, səsimiz cənab prezidentə çatsın. Bizim tək ümidimiz onadır".

Digər səhmdar Nadir Xıdırovun dediyinə görə, səhmdarlara nə torpaq, nə də əmlak verilib: "Mənim yoldaşım da səhmdardır. Bizim haqqımız ödənməyib. Sonuncu iclas ayın 5-də oldu, heç bir nəticə əldə edə bilmədik. İsmayıl Səfərov heç kəsi eşitmir, kimsə ona bata bilmir. Biz istəyirik ki, cənab prezident səsimizə səs versin. Kasıb camaatıq, qoy kömək eləsin, burda kasıb-kusublar işləsinlər.

Yaxşı, bizə iş verilmir, heç olmasa balalarımız işləsinlər. Mən zavodun qazanxanasında işləmişəm, oranın mazutu, tüstüsü ciyərlərimdədir. İndi mən kənarda qalmışam, kimlərsə burda kef çəkir".

N.Xıdırov bildirir ki, 1977-ci ildən zavodda can qoyub: "Budur mənim haqqım? İsmayıl Səfərov bizi yaxına buraxmır ki, sözümüzü deyək.

Bu boyda zavodda qazanır, 10 ildir araq çəkir, sonra Rusiyaya satışa göndərir, amma səhmdarları günahkar çıxarır, deyir ki, üstümə gəlirlər".

Səhmdar Nadirşah Qafarov da narazılardan biridir. O, işə götürsələr, zavoda işləməyə getməyə hazırdır: "Fəhləyə gündə 10 manat verirlər, işləməyə razıyıq. Biz burda işsiz-gücsüz qalmışıq, gedib kənardan işçi gətirirlər. Bizim müraciətimiz prezidentə və Mehriban xanımadır. Bu gün hamı gözünü onlara dikib, çünki başqa səsimizi eşidən yoxdur. Dövlət rəhbərliyindən xahiş edirik ki, bizə köməklik olunsun.

Bu qədər adam 2010-cu ildən mübarizə aparır. Amma bizə təzyiq göstərirlər, işimizə baxmırlar. Başçı prezidentin səlahiyyətli nümayəndəsidir, camaatla işləməlidir, sözümüzü dinləməlidir.

Bu gün prezident xalqla görüşlər keçirir, məktubları əlbəəl alır, problemlərini həll edir. Biz də istəyirik ki, cənab İlham Əliyev Xudata gəlsin, biz səhmdarların şikayətlərini eşitsin, dadımıza çatsın".

Səhmdarlar deyirlər ki, zavod müdiri tərəfindən 58 hektarlıq yer 200 minə satılıb, bağçalar peşkəş olunub, özləri iş prosesindən kənarlaşdırılıb və yerli rəhbərlik onlara dəstək olmaq əvəzinə, İ.Səfərova qahmar çıxır. Sahibkarlar prezidentə üz tutaraq bu məsələyə xüsusi diqqət göstərməsini xahiş edirlər.








❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

Yeni Müsavat
N 61 (7231) 18 mart 2019

**ATƏT-in Minsk qrupunun həmsədrləri Qarabağla bağlı sülh danışıqlarında Ermənistan hakimiyyətinin nail olmağa çalışdığı format dəyişikliyini qəbul etmədilər. Bu barədə verdikləri bəyanatın sonunda isə belə bir fikir var ki, Qarabağ məsələsi Helsinki Yekun Aktının prinsipləri əsasında həll olunmalıdır. Üç prinsip - ərazi bütövlüyü, güc tətbiq etməmək və öz müqəddəratını təyin etmə. Bu prinsipləri xüsusi qeyd etdilər.**



# Həmsədrlərin 3 prinsipi - Azərbaycana tələ, yoxsa...

## Ekspert: "Xalqların öz müqəddəratını təyinetmə prinsipi Qarabağa şamil oluna bilməz, çünki..."

Bəs bu üç prinsip Qarabağ məsələsində bir-birinə zidd deyilmi? Ərazi bütövlüyü öz müqəddəratı təyinetmə prinsipi ilə necə uzlaşa bilər? Burada Azərbaycan üçün tələ yoxdur ki?

Politoloq, beynəlxalq hüquq üzrə ekspert Nəzakət Məmmədova "Yeni Müsavat"a şərhində bildirdi ki, beynəlxalq hüquqda kolliziya, yəni ziddiyyət təşkil edən prinsiplər mövcuddur və məhz onların bu və ya digərinə istinad etmək "ikili standartlar"ın əsasını təşkil edir: "Böyük dövlətlər, dünya siyasətində söz sahibi olan dairələr və onların təsir aləti olan beynəlxalq təşkilatlar bir qayda olaraq öz maraqlarından çıxış edərək ziddiyyətli prinsiplərdən özlərinə sərf edənini münaqişənin həllində əsas götürürlər. Bu, beynəlxalq ədalətsizliyin, beynəlxalq münasibətlərdə xaosun, "ikili standartlar"dan yanaşmanın əsas səbəbidir. Papa anklavlarının 1792-ci ildə plebisit əsasında Fransaya birləşməsi beynəlxalq münasibətlərdə öz müqəddəratını təyinetmənin əsas presedentlərindən biri oldu. 1945-ci ildə bu prinsip BMT Nizamnaməsində öz əksini tapdı. Bundan əvvəl də inqilab zamanı bolşeviklərin əsas şüarlarından idi. Lakin dövlətlərin suverenliyi, bir-birinin daxili işlərinə müdaxilənin yolverilməzliyi çox-çox əvvəl - müasir beynəlxalq münasibətlərin təşəkkül tapdığı 1648-ci il Vestfaliya sisteminin məhək daşını təşkil edib. Düşünürəm ki, özmüqəddəratını təyinetmə öz pik nöqtəsinə ötən əsrin 60-cı illərində çatdı və müstəmləkə sisteminin çökməsində, Afrika xalqlarının azadlığında rol oynadı. Lakin 1975-ci il Helsinki Yekun Aktında bununla bərabər dövlətlərin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı prinsipi qəti şəkildə təsbit olundu. Qarabağ məsələsində də biz üç onillikdən bəri məhz bu cür yanaşmanın şahidiyik. Minsk Qrupu həmsədrlərinin münaqişəyə beynəlxalq hüquq prinsiplərindən deyil, öz imperialist maraqlarından yanaşması Qarabağ düyününün "Qordi düyünü"nə çevrilməsinin əsas səbəbidir. Bu düyün belə getsə, çətin ki, çözülə. Onu da elə məşhur əsatirdə Makedoniyalı İsgəndərin etdiyi kimi, bir qılınc zərbəsiylə vurub açmaq lazımdır. Bu qılınc zərbəsi İlham Əliyevin dediyi kimi, torpaqların hərb yolu ilə azad olunmasıdır. Bu, beynəlxalq hüquqdakı güc tətbiqi və ya güclə hədələmə deyil. BMT Nizamnaməsində təcavüzə məruz qalmış dövlətin öz ərazi bütövlüyünü bərpa etmək haqqıdır".



Ekspertin sözlərinə görə, beynəlxalq münasibətlərdə söz sahibi olan dövlətlər daima manipulyasiya ilə məşğul olub - ən azından son yüz ildə: "Məsələn, ABŞ prezidenti Vilson erməni məsələsinə xüsusi diqqət ayırıb və hətta onun məşhur 14 bəndində bu, öz əksini tapıb. Bu gün də ABŞ Vilsonun ideyalarına sadiqlik nümayiş etdirir. 1878-ci ildə Berlin konqresində "erməni məsələsi" ilk dəfə xristian həmrəyliyi fonunda Qərb dövlətləri tərəfindən beynəlxalq müzakirəyə çıxarılıb və indi də problem davam edir, "erməni məsələsi" böyük dövlətlərin əlində Türkiyəyə qarşı "soyqırım", Azərbaycana qarşı ərazi iddiaları şəklində istifadə olunur. Minsk Qrupu problemi həll etmək istəmir. Bu, neftlə zəngin, geosiyasi mövqeyi əlverişli, islam dininə etiqad edən, türk etnoslu Azərbaycana təzyiq vasitəsidir. Halbuki, birmənalı surətdə xalqların özmüqəddəratını təyinetmə Qarabağa şamil oluna bilməz. Həmin prinsip müstəmləkə asılılığında inləyən xalqlara şamil olunurdu, halbuki artıq hazırkı dünyada müstəmləkə sistemi dağılıb, dövləti olmayan xalqlara şamil oluna bilər, ermənilərin Ermənistan dövləti var, kiçik bir erməni ismasının Qafqazda ikinci erməni dövləti yaratmasının tarixi, siyasi, hüquqi zəmini yoxdur. Azərbaycan zatən ermənilərə ən yüksək status təklif etməklə onların öz müqəddəratını təyinetmə hüququnu tanımış olur, Ermənistanda da azərbaycanlılara ən yüksək muxtariyyət verilməsi problemin həllində qarşılıqlı ədalətin gözlənilməsi olardı, rusların yaratdığı sovet konstitusiyasında belə özmüqəddəratını təyinetmə, yəni SSRİ-dən ayrılma hüququ yalnız müttəfiq respublikalara aid edilirdi, Qarabağ kimi muxtar vilayətlərin belə hüququ tanınmırdı. Özmüqəddəratını təyinetmə ilə ərazi bütövlüyünün toxunulmazlığı arasında kolliziyanı araşdıran Venesiya komissiyası 1999-cu ildə dövlətlərin əksəriyyətinin konstitusiyasında özmüqəddəratla bağlı müddəaların olmaması, əksinə, bunun qadağa olunması qənaətinə gəlib. Venesiya komissiyasının rəyinə əsasən, özmüqəddaratını təyinetmə dövlətin sərhədləri daxilində ola bilər, sessesiya - ondan ayrılmaqla yox. Bu, separatizmə, silahlı münaqişələrə, beynəlxalq sistemdə xaosa apara bilər və aparır. 2011-ci ildə AŞPA 1832 saylı qətnamə qəbul edib. Orada deyilir: "Etnik azlıqların özmüqəddərat hüququ onların dövlətdən avtomatik ayrılması hüququ demək deyil". Avropa dövlətləri dövlətlərdən ayrılmış, xüsusilə xarici hərbi müdaxilənin köməyilə ayrılmış faktiki hökumətləri dəstəkləməkdən çəkinməyə çağırılır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# YAP gəlirlərini açıqladı: 9 milyon 413 min manat...

## Parlamentdən kənardakı partiyaların maddi durumu necədir?

**Azərbaycan qanunvericiliyinə görə, siyasi partiyalar illik maliyyə hesabatlarını aprel ayının 1-dən gec olmayaraq, Mərkəzi Seçki Komissiyasına təqdim etməlidir. MSK-dan verilən məlumata görə, martın 15-dək dövlət qeydiyyatından keçmiş 55 rəsmi siyasi partiyadan 19-u 2018-ci il üzrə hesabat verib. Bunlar Yeni Azərbaycan Partiyası, Xalq Demokratik Partiyası, Azərbaycan Naminə Alyans Partiyası, Birlik Partiyası, Liberal Partiyası, Böyük Quruluş Partiyası, Demokratik Maarifçilik Partiyası, Sosial Demokrat Partiyası, Respublikaçılar Partiyası, Liberal Demokrat Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Yurddaş Partiyası, Kommunist Partiyası, Azərbaycan Mübarizləri Partiyası, Klassik Xalq Cəbhəsi Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, Azərbaycan Xalq Partiyası, Milli Konqres Partiyası və Ədalət Partiyasıdır.**

Yeni Azərbaycan Partiyasının hesabatına görə, ötən il qurumun 9 milyon 413 min manat gəliri, 7 milyon 429,9 min manat xərci olub.

Vətəndaş Həmrəyliyi Partiyasının gəliri 135,7 min manat, xərci 125,7 min manat; Böyük Quruluş Partiyasının gəliri 118,3 min manat, xərci 118,1 manat; Demokratik Maarifçilik Partiyasının gəliri 117,9 min manat, xərci 116,7 min manat; Sosial Demokrat Partiyasının gəliri 117,8 min manat, xərci 117,7 min manat; Milli Dirçəliş Hərəkatı Partiyasının gəliri 117,8 min manat, xərci 115,8 min manat göstərilir. Qeyd edək ki, bunlar parlamentdə təmsil olunan partiyalardır.

Ədalət Partiyasının hesabatına görə 2018-ci ildə qurumun ianə formasında 200 manat gəliri, bir o qədər də xərci olub.

Parlamentdə təmsil olunmayan digər adı çəkilən partiyaların hesabatlarında hər hansı gəlir-çıxar olmadığı bəyan edilib.

Onu da bildirək ki, parlamentdə təmsil olunan partiyalar dövlət büdcəsindən maliyyələşir. Eyni zamanda üzvlük haqqı da bu partiyaların maliyyələşməsində rol oynayır.

Parlamentdə təmsilçilik hüququ olmayan partiyaların isə gəliri ianələr və ya üzvlük haqlarından çıxır.

Bu partiyaların bir qisminin üzvlük haqqı yığması məsələsində vəziyyətlərinin necə olduğunu araşdırdıq.

VİP sədri Əli Əliyev bildirdi ki, vəziyyət ölkədə olan şəraitə adekvatdır: "İnsanların maddi durumu yaxşı olmadığından, üzvlük haqqı məsələsini önə çəkmirik. Könüllü şəkildə qəbul olunan üzvlük haqları partiyanın ehtiyaclarına yönəldilir".

AXP sədri Pənah Hüseyn isə bildirdi ki, partiyanın sonuncu qurultayında üzvlük haqqının ianələr formasında qəbul olunması haqqında qərar çıxarılıb: "Hazırda qurultayın qərarına əsasən, partiyanın maliyyələşdirilməsinin yol verilən forması üzvlük haqqı yox, ianə formasıdır. Son illərdə partiyanın fəaliyyəti üzvlərin ictimai əsaslarla tənzimləndiyi üçün ümumiyyətlə, partiya maliyyədən istifadə etmir".

AĞ Partiyanın sədri Tural Abbaslı isə qeyd etdi ki, AĞ Partiyada da digər müxalif partiyalarda olduğu kimi bu sahə ürəkaçan deyil: "Çünki partiya üzvləri də Azərbaycan vətəndaşlarıdır və onların da gəlirləri digər vətəndaşlarımız kimi zəifdir. Odur ki, üzvlük haqları məsələsi çox acınacaqlıdır. Əsasən, partiyanın üzvü olan az saylı kiçik sahibkarların və digər şəxsi dostların verdikləri ianələr hesabına fəaliyyətimizi tənzimləyirik. Bu ianələrin həcmi də o qədər kiçikdir ki, buna heç maliyyə də demək olmaz. Ancaq biz çalışırıq ki, minimum maliyyə ilə maksimum işlər görək. Digərlərini deyə bilmərəm, ancaq AĞ Partiyada minimum imkanlarla maksimum işlər görə biləcək kifayət qədər təcrübəli siyasətçilər var və mən bunu özümüzün uğurumuz hesab edirik. Ümumiyyətlə isə partiyaların maliyyə məsələsini dövlət öz üzərinə götürməli və bunu birdəfəlik həll etməlidir. Çünki siyasi partiyalar öz dövlətində fəaliyyətini davam etdirmək üçün maliyyə əldə edə bilməyəcəksə, xarici qüvvələrə burada oyunlar qurmağa münbit şərait yaranır".

AMİP katibi Əli Orucov bildirdi ki, "Siyasi partiyalar haqqında" Qanuna görə siyasi partiyaların maliyyələşməsi həm də üzvlük haqlarında toplanan vəsaitlər hesabına olur, həm də ianələr hesabına. AMİP-in də Nizamnaməsində üzvlük haqları ilə bağlı müddəa öz əksini tapsa da, bu məcburi deyil: "Əvvəllər üzvlük haqlarının toplanmasında ciddi problemlər olmurdu. Lakin son dövrlər insanların maddi və sosial-iqtisadi vəziyyəti ucbatından axsamalar var. Təəssüf ki, hətta formal olaraq müəyyənləşdirilən aylıq üzvlük haqlarının ödənilməsinə imkan çatmır. Bu isə partiyanın fəaliyyətinə də yaxşı təsir göstərmir. Azərbaycanda ümumiyyətlə, müxalifət partiyalarının və üzvlərinin maliyyə imkanları ili-ildən pisləşir".

❑ **E.SEYİDAĞA,**
**"Yeni Müsavat"**



## Rusiya ilə bağlı böyük təhlükə

**Dünya bazarında neft qiymətlərinin yüksək olması hələ ki, Rusiya iqtisadiyyatına pozitiv təsir göstərir. Bunu axar.az-a Rusiyada dolların rubl qarşısında ucuzlaşması ilə bağlı danışan iqtisadçı ekspert Natiq Cəfərli deyib. O, Rusiyanın iqtisadi göstəricilərinin böyük əksəriyyətinə əsas iki amilin təsir etdiyini bildirib:**

"Bunlardan biri təbii ki, neft və enerji daşıyıcılarının qiymətləri, digəri isə Rusiya-Qərb münasibətlərinin kəskinləşməsi, yaxud da sanksiya rejimi ilə bağlı yeni qərarlardır. Bu iki faktor Rusiyanın bütün makro-iqtisadi göstəricilərinə, o cümlədən rubla təsir göstərir. Bildiyiniz kimi, Rusiyada büdcədə neftin qiyməti 60 dollardan götürülüb. Hələlik neft qiymətləri Rusiyanın büdcə parametrlərinə qoyduğu qiymətdən yüksək olduğu üçün makro- iqtisadi göstəricilər zəifləmir. Yəni neft qiymətlərinin yüksək olması hələ ki, Rusiya iqtisadiyyatına pozitiv təsir göstərir".

Ekspert buna baxmayaraq, gələcəkdə Rusiyaya qarşı işə düşəcək daha böyük sanksiyalar fonunda vəziyyətin tamamilə dəyişəcəyini bildirib: "ABŞ-da hazırda Rusiyada korrupsiya sxemləri və rus rəhbərlərinə aid olan xarici hesablarla bağlı araşdırmalar gedir. Bu, o deməkdir ki, yaxın həftələrdə Rusiya ilə bağlı böyük sənədlər açılacaq. Beləliklə, növbəti sanksiya dalğası Rusiyanın bütün iqtisadi göstəricilərinə, o cümlədən rublun məzənnəsinə mənfi təsir göstərəcək".

Neft qiymətlərinə gəldikdə, iqtisadçı hələlik neft qiymətlərinin çox dar bir çərçivədə - 62-67 dollar arasında dəyişdiyini qeyd edib: "Cəmi 5 dollarlıq bir dəhliz yaranıb ki, bu da elə də böyük göstərici deyil. Bu onu deməyə əsas verir ki, neft qiymətlərinə kifayət qədər təsir göstərəcək amillər ortaya çıxmayıb. Ancaq müxtəlif təsirlərə dair gözləntilər var. Yəni söhbət qiymətləri aşağı çəkəcək amillərdən gedir. Əgər yaxın gələcəkdə Venesuela ilə bağlı problemlərin həlli baş tutarsa, bu zaman ölkədə hasilat da artacaq. Eyni zamanda, Liviyada iki hökumətin olmasına baxmayaraq, artıq hasilatın bərpası və artırılması ilə bağlı razılığa gəlinib. Bu amillər reallaşarsa, neft qiymətlərində növbəti ucuzlaşma dalğası baş verəcək. Ancaq bu günə qədər neft qiymətlərinə təsiri olan hərəkətlərin davamlılığı nöqteyi-nəzərindən qiymətlərin qalxması ehtimalı da var".

N.Cəfərlinin sözlərinə görə, OPEK və OPEK-ə daxil olmayan ölkələrin tezliklə Bakıda reallaşacaq növbəti görüşündə hasilatın azaldılması ilə bağlı qərar qəbul edilərsə, bu, neft qiymətlərinə müvəqqəti də olsa, pozitiv təsir göstərə bilər: "Hər şey gələcək siqnallardan asılı olacaq. Siqnallar neftin bolluğuna işarə edərsə, bu, qiymətlərin düşməsinə, hasilatın azaldılması yönündə informasiyalar daha çox olarsa, bu, qiymətlərin bahalaşmasına səbəb olacaq. Hər iki ehtimalın Rusiya iqtisadiyyatına birbaşa təsiri var. Təsadüfi deyil ki, dünya rublu "kağız neft" adlandırır. Çünki neft qiymətlərinin rubla təsiri kifayət qədər böyükdür".

Qeyd edək ki, ötən gün Rusiyada dolların kursu 65 rubla qədər geriləyib.

## ABŞ nəhəng hərbi büdcəyə görə iflas edə bilər



**"ABŞ-ın borc öhdəliklərinin artmasında əsas günahkar ölkənin hərbi-sənaye komleksidir". Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu barədə Rezerford institutunun rəhbəri, amerikalı publisist Con Uaythed "CounterPunch" saytındakı məqaləsində yazıb.**

Onun sözlərinə görə, ABŞ Müdafiə Nazirliyinin korrupsiyalaşmış məmurları hərbi ehtiyaclar üçün daha çox maliyyələşməni tələb edirlər. Özü də pulun böyük hissəsi heç də ölkənin milli təhlükəsizliyinin təmin olunması üçün ayrılmır. Nümunə olaraq Con Uaythed "Open the Government" təşkilatının topladığı məlumatları gətirib. Buna görə, ABŞ Müdafiə Nazirliyinin son aldığı "silahlar" içində hər biri 53 min dollarlıq çini masa dəstləri, hərəsi 9 min dollarlıq dəri kreslolar, 308 min dollarlıq spirtli içkilər, habelə 4,6 milyon dollarlıq lobster üstünlük təşkil edib.

2001-ci ildən bu yana ABŞ apardığı müharibələrə 4,7 trilyon dollar vəsait xərcləyib. 2053-cü ilə qədər isə hərbi məsrəflərin 12 trilyon dollara çatacağı gözlənilir. Ölkənin borcu isə hər saatda 32 milyon dollar artır. ABŞ hökuməti İraqda hər 5 saniyəyə orta amerikalının illik gəliri qədər pul sərf edir.

**Yeni Zelandiyanın Kraystçerç şəhərində müsəlmanların ibadət etdiyi məsciddə törədilən terror hazırda dünya gündəminin ən çox müzakirə edilən məsələsidir. Belə ki, törədilən terror aktı 49 nəfərin ölümü, 40-a yaxın insanın yaralanması ilə nəticələnib. Hadisə zamanı məsciddə təxminən 300 nəfər ibadət edirmiş.**

# Qərb mediası 49 müsəlmanın öldüyü hadisəyə niyə "terror" demədi?

## Arzu Nağıyev: "Türkiyədə terror aktlarının yenidən baş verməsi gözlənilmir"



Terrorçu 28 yaşlı Brenton Tarrant hadisəni sosial şəbəkədə canlı yayımlayıb, bu qan donduran görüntülər qısa zamanda dünya mediasında yayılıb. Həm Yeni Zelandiya hökuməti, həm də beynəlxalq təşkilatlar, lider dövlətlər hələ ki, hadisəyə siyasi-hüquqi qiymət verməkdə çətinlik çəkir, bunun terror aktı deyil, silahlı hücum olduğunu sübut etməyə çalışırlar.

Hadisədən sonra Yeni Zelandiyanın baş naziri Jacinda Ardern qanlı hücumdan sonra ölkədəki silah əldəetmə qanunlarının dəyişəcəyini bildirib. Baş nazir Ardern qeyd edib ki, Kraystçerç şəhərində məscidə hücumu həyata keçirən terrorçu 2017-ci ilin dekabrında silah lisenziyası alıb və qətliamda 2-si yarı avtomatik, 2-si ov tüfəng olmaqla, ümumilikdə 5 silahdan istifadə edib: "Silah lisenziyalarının verilməsi və bu silahların saxlanılmasından dolayı baş verən hadisə üzərində iş aparılarkən hazırda silah qanunlarımızın dəyişəcəyini deyə bilərəm".

Yeni Zelandiya qanunlarına görə, silah rüsxəti hər hansı bir cinayətkar keçmişi olmayan, 16 yaşından böyük və əsaslı səbəbi olanlara verilir. Terror hadisəsinin baş verdiyi şəhərə gedib, Al Nur və Linwood Məscidlərində və regionda araşdırmalar edəcəyini deyən baş nazir Ardern xəstəxanalarda 2-sinin vəziyyəti kritik, 40 yaralının olduğunu qeyd edib.

Ölkəsinin yasda olduğunu deyən baş nazir regiona kəşfiyyat əməkdaşlarının da yer aldığı, əlavə təhlükəsizlik qruplarının sövq edildiyini diqqətə çatdırıb. Lakin nə o, nə də digər bir siyasi lider hadisəni terror aktı adlandırmayıb. Bunun yalnız saxlanılan şəxslərin verdiyi ifadədən sonra açıqlanacağı vurğulanıb.

Bu hadisədən fərqli olaraq Qərb ölkələrində baş verən istənilən kiçik partlayışın, silahlı atışmanın terror olması ehtimalı dərhal önə çəkilir. Hətta buna görə, dünyanın ən böyük dövlətlərinin liderləri açıqlama verirlər. Sözügedən hadisəyə isə bu həssaslıq nəzərə çarpmır. Yalnız Türkiyə ilk addımı atıb. Türkiyə prezidentinin köməkçisi Fuad Oqtay və ölkənin xarici işlər naziri Mövlud Çavuşoğlu heyətlə birlikdə qorxunc terror hücumunun yaşandığı Yeni Zelandiyaya gedib. F.Oqtay yola düşməzdən öncə İstanbul Atatürk Hava Limanında açıqlama verərək bildirib ki, bu vəhşilik iki il-dir planlaşdırılıbmış: "Terrorçular Rəcəb Tayyib Ərdoğanı, türk millətini, Türkiyəni və tariximizi də hədəf alıb. Uzun illər terrorla mübarizədə böyük itkilər vermiş və terrorun hər növünə qarşı çıxmış bir ölkə olaraq Türkiyə Yeni Zelandiyanın terrorla mübarizəsində və atacağı addımlarda yanında olacaq. Yaşanan bu terror aktı İslam düşmənliyinin həddi olmadığını yenə göstərdi. Buradan bütün dünyanı İslam düşmənliyinə, xarici basqılara, radikallığa və irqçiliyə qarşı ayağa qalxmağa çağırıq."

Onu da qeyd edək ki, Yeni Zelandiyada iki məsciddə dəhşətli qətliam törədən avstraliyalı terrorçu Brenton Tarrantın hücumdan öncə yayılan 37 səhifəlik manifesti ilə bağlı yeni detallar ortaya çıxıb. Orada əsas məqam onun tərəfdarlarına Almaniya kansleri Angela Merkel, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı və Londonun meri Sadiq Xanı öldürməyi əmr etməsidir.

Terrorçu yazısında Merkel qədər Avropaya zərər verən bir insanın olmadığını bəyan edir. Onu Avropa irqinin düşməni adlandırır. Daha sonra Tarrant Ərdoğanı xristianların ən qədim düşməni adlandırır. O bildirir ki, Avropa türklərin işğalı altındadır.

Bəs görəsən bütün bunlar Türkiyə üçün də bir terror təhdidi formalaşdıra bilərmi? Qeyd olunan hadisələrdən sonra Qərbin hələ də hadisəni terror adlandırmaması ikili standartların göstəricisidirmi?

Mövzunu "Yeni Müsavat" üçün şərh edən politoloq Arzu Nağıyev də təsdiqlədi ki, burada ikili yanaşma var: "Yeni Zelandiya özünü ən demokratik dövlətlərdən biri hesab edir. Hadisə ilə bağlı aparılan istintaq işində iki nəfər həbs olunub. Onlar çalışırlar bu saxlanılan şəxslərin sorğusu bitdikdən sonra hadisəyə hüquqi qiymət versinlər. Təbii ki, burada "ikili yanaşma" da var. Çünki bu müsəlman icmasına qarşı olan hadisədir. Əvvəllər onlar belə düşünürdülər ki, burada terror hadisələri yoxdur. Çünki özlərini multikultural dəyərlərə, tolerantlığa malik dövlət kimi nümayiş etdirirdilər. Lakin terroru törədən birinci şəxsin həbsi və onun Merkelə, Ərdoğana qarşı nifrəti ilə, onları məhv etməyə çalışması ilə bağlı verdiyi bəyanatlardan sonra artıq məsələyə diqqət artırıldı. Qərb təkcə bu hadisədə deyil, daha öncə də müsəlmanlara qarşı törədilən qırğınları terror aktı adlandırmadı. Lakin sonradan məcbur oldular ki, bunu terror hadisəsi kimi dəyərləndirsinlər. Əsas məsələ bundan ibarətdir. Yəqin ki, ilkin ifadələr alındıqdan sonra qərar veriləcək və bunun həqiqətən terror kimi təsbit olunması inkar olunmazdır. İkili standart ondan ibarətdir ki, Yeni Zelandiya dövləti belə bir hadisənin baş verməsini gözləmirdi. Bu, böyük Britaniyaya bağlı dövlətdir. Və çalışırlar ki, bu hadisələri "demokratiyanın beşiyi"ndə baş verən hadisə kimi qiymətləndirsinlər. Lakin paralel olaraq dünən Böyük Britaniyada məscidə ibadət etməyə gələn şəxsin avtomobilinə hücum edilməsi bir daha göstərdi ki, bu iki hadisənin bir mərkəzdən idarə edilməsi ehtimalı var".

Politoloqun sözlərinə görə, Türkiyədə terror aktlarının yenidən baş verməsi və bu qruplaşmanın qardaş ölkə üçün təhdid doğurması gözlənilmir: "Bu inandırıcı görünmür. Bu gün Türkiyə ilə Qərb arasında elə böyük bir problem yoxdur. Türkiyə elə bir dövlətdir ki, bir çox məsələlərdə mövqeyi Qərblə üst-üstə düşür. Son hadisələrdən sonra artıq həm terrora qarşı mübarizə gücləndirilib, eyni zamanda əməliyyat şəraitinə nəzarət olunur. Türkiyədə belə hadisələrin baş verməsi inandırıcı görünmür. Ancaq onu da qeyd etmək lazımdır ki, heç bir dövlət terrordan sığortalanmayıb. Bütün dövlətlər bu hadisədən nəticə çıxartmalıdır".

**Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# "Tənqidlərimi bildirəndə məni "xalq düşməni" etdilər"

## Şəhriyar Cəfərov: "Milli rəqslərimizin quruluşuna baxanda görürük ki, bizə xas olmayan, slavyan üslubunda rəqs hərəkətlərinə yol verilir"



**"Yeni Müsavat"ın qonağı baletmeyster-xoreoqraf Şəhriyar Cəfərovdur. Onunla müsahibəni təqdim edirik:**

***- Hazırda ölkəmizdə tanınan peşəkar baletmeystr-xoreoqraflardan biri də sizsiz. Bu gün klassik balet sənətində vəziyyət necədir?***

- Əslində xoreoqrafiya sənətinin daha da yüksək səviyyədə inkişaf etməsini istəyənlər var. Məsələn, Xoreoqrafiya Akademiyasında ustad dərslər üçün xarici ölkələrdən tanınmış peşəkar xoreoqraflar dəvət olunur. Bu əlbəttə ki, təqdirə layiqdir. Lakin akademiyada müəllim problemi yaşanır. Akademiyanı bitirən, heç bir pedaqoji təcrübəsi olmayan məzuna birbaşa sinif verilir ki, dərs keçsin. İstər klassik balet, istərsə də milli rəqslərdə təkcə texniki elementlər deyil, həm də pedaqoq kimi hər bir tələbənin, şagirdin daxilini, psixologiyasını bilmək çox önəmlidir.

***- Ümumiyyətlə, bu gün klassik baletə kifayət qədər maraq varmı?***

- Var, elit təbəqə arasında. Əslində insanları təbəqəyə ayırmağı xoşlamıram, amma reallıq budur. Akademik, klassik musiqiyə, balet və opera sənətinə marağı olan insanlar arzulayır ki, övladları da bu camiyədə olsun, mədəni tərbiyə alsın.

Əksər hallarda bəzi valideynlər övladlarının, xüsusən də qızlarının gözəl bədən quruluşuna malik olması üçün bu sənətə gətirir, daha sonra ayırırlar. Lakin olur ki, uşaq bu sənətin "qazanında qaynadıqdan" sonra ayrıla bilmir və sənətini davam etdirir, illərlə öz üzərində çalışır. Bununla yanaşı deyə bilmərik ki, onların hamısı bu sənətə layiqdir, təbii ki, aralarında sayılı məzun olur ki, bu sənəti layiqincə təmsil etsin.

***- O da məlumdur ki, Azərbaycanda oğlan uşaqlarını klassik balet sənətinə qoyan valideynlər həddən artıq az olub. Bəs indi necədir?***

- Əvvəllər klassik baletdə sırf azərbaycanlı kimi Maqsud Məmmədov hesab edilirdi. Baletmeystrlər əsasən yarı azərbaycanlı, yarı başqa millətdən olanlar idi. Məsələn, 1986-cı ildə xoreoqrafiya məktəbinə daxil olanda yeganə azərbaycanlı, Azərbaycan dili bölümündən olan şagird mən idim. Əslində mənə görə Azərbaycan dili bölümü açılmalı idi, lakin belə olmadı və məcburən rus dili bölümündə təhsil aldım.

Təbii ki, hazırda klassik baletə gələn azərbaycanlı oğlan uşaqları var, lakin onların əksəriyyəti sonradan şöbələrini dəyişib, milli rəqsə yönəlirlər. Bu sənəti tam davam edən, fəxri adlar alan baletmeystrlərimiz də var.

***- Yəqin ki, razılaşarsız, bu gün əksərən milli rəqslərimizin təbliğatı, təqdimatı düzgün formada deyil...***

- Bildiyiniz kimi, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Dövlət Rəqs Ansamblı, "Cəngi" rəqs ansambllarımız var. Yəni sayı az olsa da, peşəkar rəqs ansambllarımız var. Öncə Mahnı Rəqs Ansamblı uzun illər öncə yaranıb və əsasən folklor rəqslərimizin qorunmasına xidmət edir. Əvvəllər ansamblda Əlibaba Abdullayevin quruluş verdiyi gözəl rəqslər var idi və biz onlardan yararlanırdıq. Çünki Əlibaba müəllimdən əvvəl orada başqa millətdən olan baletmeystrlər quruluşlar verirdi. Onlar Azərbaycan ruhunu kifayət qədər hiss etmədiklərinə görə milli rəqslərimizi dolğun verə bilmirdilər. Beləliklə, sırf folklorumuzu yalnız Əlibaba müəllimin quruluşunda təqdim olunmağa başlamışdı. Dövlət Rəqs Ansamblına gəldikdə isə məlum olduğu kimi, bu ansambl təxminən 1970-ci illərdə maestro Niyazinin təşəbbüsü ilə yaradılıb. Maraqlıdır ki, bu ansambl haqqında çox az məlumat verilir. Ansamblın ilk baletmeystri Uran Əkbəroviç olub. O və Stepan Popov ansamblda cəmi 6 ay işləyib. Daha sonra ansamblın baletmeystri xalq artisti Xumar Zülfüqarova olub. Lakin indi qeyd edilir ki, ansamblın ilk baletmeystri və yaradıcısı Xumar xanım olub. Uran Əkbəroviç hazırda Polşada balet teatrının baş baletmeystridir. Bu barədə tarixi yeganə bilənlərdən biri də mənəm. Daha sonra ansambla Afaq Məlikova rəhbərlik etməyə başladı. Onun xoreoqrafiya quruluşları barədə dəfələrlə tənqidlərim olub. Afaq xanım zamanında bəlkə də yaxşı rəqqasə olub, amma peşəkar baletmeystr kimi səhvləri çox idi və bu sahədə təhsili də olmayıb.

***- Məsələn, nöqsanları nədə görürdüz?***

- Gəlin götürək "Vağzalı-Mirzəyi" rəqsini. Yəqin ki, bu rəqsi izləmisiz: səhnəyə az qala 40 kişi və ağ gəlinlik libasında xalq artisti Təranə Muradova daxil olur. Dəfələrlə bu sualı Təranə xanıma verimişəm, "həmin rəqsdə əslində hansı obrazı vermək istəmisiz?" Əgər gəlindirsə, gəlinin 40 kişinin arasında nə işi var? Yox əgər kişi məclisində qadın rəqqasə obrazı vermək istəyiblərsə, qeyd edim ki, zamanında kişi məclislərində qadın rəqqasələr olmayıb. Yəni həmin rəqsin məzmunu, mövzusu yoxdur. Heyflər olsun ki, illərlə bu rəqs həm ölkəmizdə, həm də xarici səfərlərdə bu cür təbliğ olunur.

Daha sonra "Cəngi" rəqsi, bu rəqs axı bayram rəqsi deyil. Bu, döyüş, savaşa çağırış rəqsidir. Orada oğlanlar qılınc və qalxanla olmalıdır. Bildiyiniz kimi "Cəngi" Üzeyir Hacıbəyovun "Koroğlu" operasında səslənib. Zamanında operada bu rəqsə quruluşu Qəmər Almaszadə verib. Həmin quruluşda oğlanlar qılınc və qalxanla cəngavərlik, igidlik tərənnüm ediblər. Hazırda isə bu rəqs sadəcə bayram təntənəsi, qızlarla oğlanların kütləvi rəqsi kimi təqdim edilir.

Ümumiyyətlə, hazırda milli rəqslərimizin quruluşuna baxanda görürük ki, bizə xas olmayan, slavyan üslubunda rəqs hərəkətlərinə yol verilir. Hətta qaraçı rəqslərindəki hərəkətlərdən də istifadə edilir.

Bu haqda tənqidlərimi bildirəndə məni "xalq düşməni" kimi qələmə verməyə başladılar. Lakin məlum olduğu kimi bir müddət bundan əvvəl mədəniyyət nazirinin müavini vəzifəsində çalışan Ədalət Vəliyev özü Afaq xanıma öz iradlarını bildirdi və ansambla xarici ölkədən, Çeçenistandan baletmeystr dəvət edildi. Doğrudur, həmin baletmeystr ansamblda ciddi nizam-intizam yarada bildi, amma rəqslərimiz milli ruhdan çıxmağa başladı.

***-Efirlərdə hazırda daha çox rəqqasə Fatimənin, Oksana Rəsulovanın ifalarını görürük. Onların ifasını qənaətbəxş hesab edirsizmi?***

- Əksər hallarda televiziya kanallarında keyfiyyətsiz ifalar təbliğ edilir. Peşəkar ifaçılar isə kənarda qalır və onlar daha çox festivallara, müsabiqələrə gedir. Eləcə də adını çəkdiyiniz xanım da keyfiyyətsiz ifalar təqdim edən rəqqasələrdən biridir. Doğrudur, sənətini, rəqsi sevir, üzərində çalışır, gözəl görünüşülüdür. Lakin sənətə yalnız qazanc məqsədi ilə baxır. Dəfələrlə özünə də demişəm ki, "sən özünə peşəkar rəqqasə demə, çünki ən azı sənin xoeqrofiya təhsilin yoxdur".

***- Sizin özünüzü də son zamanlar efirlərdə, demək olar ki, görmürük.***

- Bir müddətdir ki, mən ifaçılığımı dondurmuşam. Doğrudur, dəvətlər alıram, lakin qəbul etmirəm.

***- Səbəb nədir?***

- Çünki daha çox səhər verilişlərinə dəvət alıram. Mən də adətən qrupla çıxış edirəm və əksər hallarda qrupumun üzvləri müəyyən səbəblərə görə səhər verilişlərə qatıla bilmir. Üstəlik özüm də hərbi ansamblda çalışırdım və səhər vaxt edib efirə çıxa bilmirdim. Digər səbəblərdən biri də budur ki, efirlərin pavilyonu rəqs qrupları üçün yaramır.

***- Hərbi ansambldan söz düşmüşkən, bu yaxınlarda mətbuata açıqlamalar verərək bildirdiniz ki, heç bir xəbərdarlıq edilmədən, səbəb göstərilmədən çalışdığınız hərbi ansambldan uzaqlaşdırılmısız. Müraciətlərinizin bir nəticəsi oldumu?***

- Hələ ki, heç bir nəticə yoxdur. Nazir müavinin qəbuluna yazılmışam, ümid edirəm ki, məni də dinləmək üçün qəbul edəcəklər. Qeyd edim ki, həmin zabitlər evində 2011-ci ildən işləmişəm və işdən azad olunana qədər bütün dövlət əhəmiyyətli tədbirlərdə iştirak etmişəm, mükafatlar almışam. Hər zaman xarici ölkələrdə rəqslərimizi peşəkarcasına təqdim, təbliğ etmişəm. Azərbaycanda yeganə olaraq SSRİ xalq artisti Mahmud Esembayevin tələbəsi olmuşam. Sənətim haqqında ən böyük mütəxəssislər, o cümlədən Əminə Dilbazi, Kamil Dadaşov, Azad Hüseynov, Xumar Zülfüqarova, canlı əfsanəmiz Roza Cəlilova öz sözlərini deyiblər. Bu cür sənətkarlar mənim sənətimi dəyərləndirdiyi halda, çalışdığım ansamblda dəyərləndirmək istəmədilər. Heç bir əsas olmadan çalışdığım ştatı bağladılar, məni işdən azad etdilər, bir ay sonra başqa adda ştat açıb, qeyri-peşəkar şəxsi işə götürdülər.

***- İllər öncə Opera və Balet Teatrından da uzaqlaşdırılmışdız. Bir müddət öncə mətbuatda adı çəkilən teatrda 15-ə yaxın peşəkar baletmeystrlərin etiraz olaraq işdən çıxdığı barədə məlumatlar yayıldı. Bu, sənət aləmində baş verir, peşəkarlar sıxışdırılır, yoxsa?..***

- Problem baletmeystrlərdə deyil, problem teatrın direktorundadır. Direktor şəxsi ambisiyası ilə çalışır, istədiyi şəxsi saxlayır, istəmədikləri min bir üsulla teatrdan uzaqlaşdırılır. Zamanında çox məşhur ifaçılar direktorla yaranmış problemə görə teatrdan gediblər. Hazırda da teatrda bu ab-hava davam edir. Təsəvvür edin ki, bütün dünyada əfsanəvi bəstəkarımız Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti səhnələşdirildiyi halda, heç bir zaman Azərbaycanda səhnələşdirilməyib. Hətta Arif Məlikov bu barədə dəfələrlə mətbuatda, mediada öz narazılığını bildirib. Arif Məlikov kimi əfsanə bəstəkarımız incik, narazı salınırsa, başqa sözə ehtiyac yoxdur. Bu vəziyyət davam etdikcə, opera və balet sahəsində yüksəlişə nail ola bilməyəcəyik.

***- Kifayət qədər peşəkar baletmeystrsiz, bu sənətdə illərlə təcrübəniz var, amma hazırda işsizsiz və başqa yerdən də gəlir mənbəyiniz yoxdur. Xarici ölkəyə köçüb, karyeranızı və yaşayışınızı orda davam etməyi düşünmüsüz?***

- Sənətimlə bağlı daim başqa ölkələrdən dəvət alıram. Hətta iki il İstanbul Opera və Balet Teatrında çalışmışam. Orada sənətimə böyük dəyər verilirdi, ən məşhur əsərlərdə çıxış etmişəm. İstəyirdim ki, bu sənəti ancaq öz ölkəmdə təbliğ edim. Amma...



**"İstəyirdim bu sənəti ölkəmdə təbliğ edim, amma..."**

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 61 (7231) 18 mart 2019

# Novruz günləri düzgün necə qidalanmalı?

## Dietoloqdan sağlam qidalanma tövsiyələri; **Leyla Zülfüqarlı:** “Novruz ağır karbohidratlı qidalar bayramıdır...”



**Sabah ilaxır çərşənbə, növbəti gün isə Novruz bayramıdır. Bayrama ən ciddi hazırlıq isə mətbəxdə gedir, müxtəlif şirniyyatlar hazırlanır, şəkərbura, paxlava, qoğal bişirilir. Bundan başqa, bayram süfrəsinin meyvələri, qoz-fındığı ilə yanaşı, plov, dolma kimi ana yeməkləri, salatları da olur.**

Hətta “süfrəm bol olsun ki, bütün ilim bol keçsin” deyənlər müxtəlif növ qidaları da əlavə edirlər. Süfrəyə oturan insanlar isə bütün bunları eyni vaxtda dadmağa çalışır. Qazlı sular, salatlarla bərabər qəbul olunan plov və dolma, üzərindən şəkərbura və paxlavalı çay, meyvə, ardından çərəzlər... Yəqin ki, bu qısa təsvirdə hər kəs öz bayram təcrübəsini görə bildi. Lakin bu ənənəmiz sağlamlığımıza necə təsir edir? Bu qədər yüksək kalorili yemək və şirniyyatın qəbulu ilə özümüzə hansı pisliyi etmiş oluruq?

Bu suallarla bağlı “Yeni Müsavat”a danışan diyetoloq Leyla Zülfüqarlı da təsdiqlədi ki, Novruz bayramı daha çox şirniyyat bayramı kimi qəbul olunur: “Çünki bayram ərəfəsində həddindən artıq şirniyyat qəbul olunur. Bayramın yaxınlaşdığı indiki dövrdə insanları maarifləndirməyə ehtiyac var ki, normadan çox artıq şirniyyat yeməsinlər və orqanizmi yükləməsinlər. Daxili orqanları qorumaq üçün artıq kaloridən çəkinmək lazımdır. Çox zaman bayramlarda yemək süfrəsi ilə çay süfrəsini bir arada təşkil edirik. Bu zaman insanlar heç bir ölçü müəyyən etmədən, porsiyaya fikir vermədən yemək və şirniyyat qəbul edirlər. İnsanlar bilməlidirlər ki, 1 ədəd şəkərburanın kalorisi 600-650 kaloridir. Bir porsiya plovun da kalorisi eynən bu qədərdir. Plov yeyərkən ən azı insanlar bunun ağır yemək olduğunu bilir, ancaq qoğal, şəkərbura, paxlavaya qətiyyən məhdudiyyət qoymurlar, ölçüsüz qəbul edirlər. Hər çay içəndə paxlava, şəkərbura yeyirlər”.



Dietoloq onu da vurğuladı ki, yemək və çay öyünlərini qarışdırmaq olmaz: “Şəkərbura ilə çay içmək elə bir öyün yeməyə bərabərdir. Ona görə də, bunu yeməyin ardınca yox, ara öyünlərdə qəbul etmək daha doğru olar. Ümumiyyətlə, yemək mədəniyyəti baxımından yağlı yeməklərin yanında çay içmək doğru deyil. Ən önəmli məsələ isə ölçünü itirməməkdir. Əgər az miqdarda şirniyyat qəbul etsələr, zaman keçdikcə onu yandırmaq da olar. Əsas problem ölçüdədir. Paxlava və şorqoğal da hərəsi 700 kaloridir. Yəni Novruz ağır karbohidratlı qidalar bayramıdır. İnsanlarımız nəzərə almalıdırlar ki, bayram bir gün deyil, günlərlədir. Yeməkləri günlər üzrə bölmək olar, hər gün birindən istifadə etməklə çox yaxşı bayram ənənəsi yaşaya bilərik. Sevdiyiniz qidalardan az-az yeyin ki, ona sevginiz də itməsin, bir yeməyi aşırı dərəcədə qəbul etmək olmaz. Əvvəllər bu şirniyyatlar yalnız bayramda bişirilirdi, ona görə də Novruzun gəlişi daha çox sevindirici olurdu. İndi ilboyu hər yerdə satılır, bayram olmayan günlərdə də insanlar onu alıb yeyirlər”.

L.Zülfüqarlı vurğuladı ki, yeməyimizə nəzarət edə bilsək, porsiyalara diqqət yetirsək və qidaları qarışdırmasaq düzgün qidalanmış olarıq: “Bayramda eyni vaxtda bir çox yeməkləri süfrəyə düzüb onların hamısını eyni vaxtda qəbul etmək olmaz. Bunu müxtəlif günlərə və öyünlərə bölmək lazımdır. Şirniyyatları səhər qəhvəaltısında yemək olar, axşam 8-dən sonra isə şirniyyat qəbul etməmək məsələhətdir. Bu zaman müxtəlif salatlardan yemək olar. Şirniyyat günün birinci yarısında yeyilməlidir. Bayram süfrəsində şirniyyatlarla yanaşı, meyvə də aşırı dərəcədə qəbul olunur. İnsanlarımız bilməlidir ki, meyvələrin də tərkibində şəkər var. Hətta qoz-fındıq da eyni vaxtda yeyilir. Bununla da şəkər yükü ilə mədəaltı vəzi bombardman etmiş oluruq. Çərəzlərə gəlincə, gündəlik normaya görə, hər birindən bir ovuc yemək olar. Çərəzləri də qarışdırmaq olmaz. Bir gün qoz, bir gün fındıq, bir gün badam qəbul etmək olar. Onları qarışdırdıqda kalori çoxalır, ona görə insanlar bayramda kökəlirlər. Artıq insanlar çəki artımını öncədən nəzərə alırlar. Ancaq normal qidalanmaqla artıq çəki almaqdan da qurtula bilərik”.

Dietoloqun fikrincə, yemək süfrəsinə qazlı içkilərin qoyulması adəti də ləğv olunmalıdır: “Digər bir məsələ isə odur ki, yeməklərin yanında qazlı içkiləri qəbul etməyi də tərgitmək lazımdır. Bu çox ciddi bir mövzudur, bu artıq keçmişdə qalmalıdır. Bu deyilənlərə əmək etməklə, sevimli Novruz bayramını sağlığımıza zərər vermədən qeyd edə bilərik. Lakin ölçünü nəzərə almasaq, bayram bizim üçün təhlükəli gələcək”.

❑ **Nərgiz LİFTİYEVA,**
**“Yeni Müsavat”**

# “Məsciddə ibadət zamanı öldürülənlər şəhiddirlər”

## “Əjdərbəy” məscidinin axundu **Hacı İlham Rəsulov:** “Onlar Allah yolunda öldürülmüş hesab olunurlar...”

**Yeni Zelandiyada müsəlmanların ibadət etdiyi məsciddə törədilən terror aktı 51 nəfərin ölümü, 40-a yaxın insanın yaralanması ilə nəticələnib. Baş verən hadisənin görüntüləri isə terrorçu 28 yaşlı Brenton Tarrant tərəfindən sosial şəbəkədə canlı yayımlanıb. Burada insanların necə kütləvi şəkildə güllələnməsi öz əksini tapıb.**



İnsanları düşündürən suallardan biri də, məsciddə namaz qılarkən öldürülən bu insanların şəhid hesab olunub-olunmamasıdır. Din uğrunda savaşda olmasa da, Allahın evində ibadət edərkən faciəli şəkildə həyatlarını itirən bu terror qurbanlarına şəhid demək olarmı?

“Yeni Müsavat”ın sualını cavablandıran “Əjdərbəy” məscidinin axundu Hacı İlham Rəsulov bildirdi ki, Allah evində ibadətdə ikən öldürülən bu insanlar şəhiddir: “Əgər bir insan, məsciddə ölübsə, hətta fərdi şəkildə dünyasını dəyişibsə, ona mehrab şəhidi adını vermək olar. Bu insanlar isə cümə günü Allah yolunda məscidə namaz qılmağa gediblər və bu şəkildə öldürülüblər, Allah yolunda öldürülmüş hesab olunurlar. ”Qurani-Kərim"də “Ali İmran” surəsində bu barədə ayələr var. Orada Allah yolunda öldürülənlərin şəhid olması ilə bağlı qeyd edilir. Allah yolunda öldürülənlər deyəndə məscidə ibadət üçün gedənlər də nəzərdə tutulur. Biz Qafqaz Müsəlmanları İdarəsi olaraq da, bu barədə açıqlama vermişik, terroru lənətləmişik. Bütün məscidlərdə bu haqda söhbətlər aparılır. Bu açıq şəkildə müsəlmanlara qarşı törədilmiş bir hadisədir. Nəticədə isə İslam qalib gələcək və biz bunu bütün dünyaya bəyan edəcəyik. Diqqət etdinizsə, Qərb dairələri bunu, sadəcə, bir silahlı şəxsin hücumu kimi qələmə verdilər, ancaq elə deyil. Burada ibadət halında olan dinc insanların qətlindən söhbət gedir".

Allah yolunda öldürülən insanların da şəhid hesab edilməsi ilə bağlı müqəddəs kitabımız olan Qurani-Kərimdə də ayələr var. Ali-İmran surəsinin 157-ci ayəsində deyilir: “Əgər Allah yolunda öldürülər və ya ölərsinizsə, Allahın sizi bağışlaması və rəhm etməsi şübhəsiz ki, (kafirlərin dünyada) topladıqları şeylərdən (sərvətdən) daha xeyirlidir”. Ali-İmran surəsinin bir ayə isə belədir: “Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur. Onlar Allahın Öz mərhəmətindən onlara bəxş etdiyi nemətə (şəhidlik rütbəsinə) sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış (şəhidlik səadətinə hələ nail olmamış) kəslərin (axirətdə) heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər. Onlar Allahdan gələn nemət və mərhəmətə görə, həm də Allahın möminlərin mükafatını puça çıxarmayacağına görə sevincək olurlar”.

Qeyd edək ki, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr İşei, Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Melih Yevdayev Yeni Zelandiyada məsciddə törədilən terror aktı ilə bağlı dünya ictimaiyyətinə müraciət ediblər. QMİ-dən bildirilib ki, müraciətdə müsəlmanlara qarşı reallaşdırılan qətllərin dini mənsubiyyətə görə həyata keçirilməsini islamofobiyanın bariz nümunəsi kimi qiymətləndirilib: “Belə faşist mahiyyətli əməllərin qətiyyən yolverilməz olduğunu bəyan edirik. Hansı məqsəd və niyyət, hədəf və məramla həyata keçirilməsindən asılı olmayaraq insanların milli, dini, irqi mənsubiyyətə görə məhv edilməsi ksenofobiya təzahürü olmaqla insanlıq adına ləkə, mənəvi böhrandır. Bu amansız terror əməlindən son dərəcə hiddətlənir, terrorizmin bütün forma və təzahürlərini kəskin şəkildə qınayırıq. Biz dünya ictimaiyyətini belə barbarlıq hallarına, islamofobiya, dini ayrıseçkiliyin müdhiş nümunəsinə sərt və birmənalı münasibət bildirməyə çağırırıq. Müsəlmanlar üçün müqəddəs olan Cümə gününü qara cüməyə çevirmək, Yaradana ibadət edən dinc insanları qətl etməyi qəhrəmanlıq kimi zənn edən islamofob bir düşüncə sahibinin iyrənc hərəkətləri insanlıq adına həqarətdir. Terrorun dini, terrorçunun dini mənsubiyyəti olmur. Lakin xəstə, zəhərlənmiş təfəkkürlə törədilmiş bu hadisə bütün bəşəri bu reallıq barədə bir daha, daha dərindən düşünməyə və daha effektiv addımlar atmağa vadar edir.

Yeni Zelandiyada baş verən bu amansız terror aktı əslində bütün dinlərə, bütövlükdə bəşəriyyətə qarşı yönəlmiş cinayətdir. Azərbaycan dövləti təkcə İslam dünyası daxilində deyil, bütün səmavi dinlər arasında dostluq və qardaşlığın vacibliyini təlqin edir”.

❑ **Nərgiz LİFTİYEVA,**
**“Yeni Müsavat”**

# Göyçayda məktəb direktoru qəfildən öldü

**Göyçayda məktəb direktoru qəfil vəfat edib. Publika.az xəbər verir ki, rayonun Hacıalıkənd kənd orta məktəbinin direktoru Nəcməddin Əliyef qəfil vəfat edib. N.Əliyevin ürəyində problemlərin olduğu bildirilir.**

Allah rəhmət eləsin!

YENİ MÜSAVAT
N 61 (7231) 18 mart 2019

**Xəbər verdiyimiz kimi, Yeni Zelandiyadakı məscid terrorundakı əsas şübhəlinin 28 yaşındakı avstraliyalı Brenton Tarrant olduğu açıqlanıb. Radikal sağ yönümlü Tarrant hücumları öz tərəfindən qeydə alınan canlı bir video görüntü ilə internetdə yayıb. Bir video oyununa bənzədilərək çəkilən tükürpədici görüntülərdə terrorçunun qarşısına çıxan qadına, kişiyə, uşağa, hər kəsə yaxın məsafədən necə atəş açdığı görünür.**



# Xristian terror törədəndə "dəli" deyirlər, müsəlman törədəndə terrorçu

## Dünyada terrorçuların dini mənsubiyyəti niyə "ikili standart"lara səbəb olur?

Şübhəlinin daha öncə zorakılığı təşviq edən radikal sağ yönümlü təbliğat əks etdirən uzun bir mətni də internetə yüklədiyi qeyd olunub. Yeni Zelandiya baş naziri Jacinda Ardern Tarrant da daxil olmaq üzrə hələ də 3 nəfərin göz altında olduğunu açıqlayıb.

Avstraliya baş naziri Scott Morrison da şübhəlilərdən birinin Avstraliya vətəndaşı olduğunu təsdiqləmişdi. Morrison bu insanın "radikal sağ yönümlü və zorakılıq tərəfdarı olan bir terrorist" olduğunu deyib və Yeni Zelandiyadakı istintaqa Avstraliyadakı instansiyaların da dəstək verəcəyini bildirib.

İnternetə qoyulan canlı video yayını zamanı görünür ki, bunu çəkən şəxs hadisəni birbaşa çatdırmaq üçün başına bir kamera yerləşdirib. Nur məscidindəki terroru anbaan canlı göstərən video Facebookda da qısa bir müddət paylaşılıb. Hücumu gerçəkləşdirməyə gedən şəxsin maşınında arxa planda eşidilən musiqinin 1990-cı illərdə Bosniya müharibəsi zamanı serb millətçilərinə aid bir marş olduğu bildirilir. Marşda 1990-cı illərdəki aksiyalara görə məhkəmə tərəfindən soyqırım və müharibə cinayətlərinə görə məhkum edilən bosniyalı serblərin eks-lideri Radovan Karaciç barədə tərifli sözlər deyilir. Terrorçunun əlindəki silahın üzərində müsəlmanları və qaçqınları öldürməyə görə məhkum olunmuş cinayətkarların adlarının yazıldığı görülür.

### Ağ irqin üstünlüyü fikrinə bağlı manifest

Avstraliya mediası, terrorçunun Sidneyin 600 km cənubundakı Grafton qəsəbəsindən gəldiyini və daha öncə bir idman mərkəzində çalışdığını yazıb. Onun işlədiyi idman mərkəzinin rəhbəri Tracey Gray isə yerli mediaya verdiyi açıqlamada Tarrant haqqında "Radikal dünyagörüşü və aqressiv olduğunu göstərəcək heç bir şey etmirdi" deyib.

İnternetə yerləşdirdiyi "Böyük Yerdəyişdirmə" (The Great Replacement) başlıqlı 74 səhifəlik bir sənəddə terrorçu 2017-ci ildə Avropaya baş çəkəndə gördüyü şeylərə hirsləndiyini və qayıdanda da bu hücumu planlaşdırdığını bildirib. Mətndən belə anlaşılır ki, o, Nur Məscidini 3 ay öncə hədəf olaraq seçib. Hücum zamanı ölməməyi hədəfləyib və aksiyanın hədəfi də qorxu salmaq olub. Onlarla səhifəlik bir mətndə uzun-uzun Avropanın müxtəlif ölkələrindən nümunələrlə, Avropa xalqlarının yox olmaqda olub onların yerini "fərqli, daha aşağı və təhlükəli mədəniyyətlərdən gələn qaçqınların" aldığı barədə bir komplo-nəzəriyyə işlənir.

Mətn əsasən müsəlmanlardan qorxmaq, onlara nifrət etmək lazım gəldiyindən bəhs edən beynəlxalq bir irqçinin manifesti xarakterlidir.

### "Yüksək profilli düşmənlər" arasında Ərdoğan da var

Dövlətlərin və qurumların, "qlobal kapitalizmin davamını təmin edə bilmək məqsədilə" qaçqın axınını sürətləndirmək üçün "ağ soyqırımı" təşviq etdiyi inancı da bu nəzəriyyənin önəmli bir hissəsini təşkil edir.

Mətndə bu kateqoriya üzrə "yüksək profil sahibi düşmənlər" sayılan Almaniya baş naziri Angela Merkel, Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan və London bələdiyyə sədri Sadiq Xan haqqında da təhdidlər yer alır. Zaman-zaman yəhudi düşmənliyi də su üzünə çıxır və dünya iqtisadiyyatına hegemonluq edən bu sistemə görə yəhudilərin məsuliyyət daşıdığı ilə bağlı neo-Nazi iddiaları dilə gətirilir.

Amma daha önəmlisi bu nəzəriyyə içində ifadə edilən düşüncələrin təkcə bir insanın yayınladığı mətndən ibarət olmamasıdır. Böyük Yerdəyişdirmə termini ilk olaraq Fransada istifadə edilmişdi. Amma bu, artıq dünya miqyasında bir çox irqçi qrup tərəfindən mənimsənilən bir teoriyadır. Bu qrupları və fəaliyyətləri araşdıran BBC müxbiri Dominic Casciani onun öndə gələn müdafiəçiləri arasında Avropadakı İslama qarşı Nəsil Kimliyi (Generation Identity) adlı hərəkat üzvlərinin olduğunu deyir.

Bundan başqa, bu komplo-nəzəriyyə Faceookdakı qapalı qruplar və digər sosial media platformları başda olmaqla üzrə geniş və gedərək də böyüyən bir axının ana xəttini təşkil edir. Bu qruplarda paylaşılan hər cür saxta xəbər linki və mətni, həqiqətlərlə və etibarlı qaynaqlarla bağını tamamilə qoparmış insanların qorxularını və hirslərini yetərincə artırır.

Bu günədək baş verən terror olaylarında daha çox miqrantların, müsəlmanların baş rolda olmasına dair faktlar bir qədər şişirdilirdi. Bu, 2015-ci ildən etibarən Avropaya olan miqrant axınının qarşısını almaq üçün məqsədyönlü təbliğat kampaniyası, müsəlmanların terrorist olması barədə fikirlərin yayılmasının nəticəsi idi.

Avropada öz soyuqqanlılığı ilə fərqlənən qətllər baş verdikcə terrorizmin sərhədləri də genişlənəcək. Amma bu məsələdə diqqəti çəkən məqamlardan biri seçilən qurbanların psixoloji durumu, xüsusi amansızlığıdır. Xatırlayırsınızsa, Norveçdə 77 adamı öldürən Breivik məhkəmədə Utöya adasında törətdiyi terror aktını soyuqqanlılıqla izah etmişdi. O, "mən əslində yaxşı insanam, sadəcə, yaxşılıq etməyi unutmuşam" demişdi. O, məhkəməsində bildirmişdi ki, döyüşə gedərkən əvvəlcədən psixoloji hazırlıq görüb. Məhkəmənin sonunda Breivik "Əl Qaidə"nin dünyadakı ən uğurlu təşkilat olduğunu söyləyib.

Eyni hal bir müddət öncə ABŞ-ın Las-Veqas şəhərində baş verən qətllə bağlı yaşanıb. Hadisə "Madalay Bay" hotel-kazino kompleksi yaxınlığında musiqi festivalında atışma zamanı baş verib. Hotelin 32-ci mərtəbəsindən festival iştirakçılarının atəşə tutulması nəticəsində 50-dən çox insan ölüb, təxminən 400 nəfər yaralanıb. Hadisəni törədən şəxs polis tərəfindən tutulacağını görüb özünü öldürüb. Onun 64 yaşlı yerli sakin Stiven Paddok olduğu müəyyənləşib.

### Onlar niyə terrorçu olurlar?

Gördüyünüz kimi, hətta firavanlığın və dinc həyatın mərkəzi sayılan Avropada da çox qatı cinayətkarlar yetişir. Doğrudur, onlar çox nadir hallarda müstəqil hərəkət edirlər və öz təşəbbüsləri əsasında belə addım atırlar. Bir çox hallarda hansısa terror təşkilatının bir üzvü olduqları üçün insanların dünyasını qaraltmağa cəhd göstərirlər və bu, alınır.

Terror təşkilatlarına qoşulanların çoxunun əsas funksiyası həm də canlı bomba olmaqdan ibarətdir. Təl-Əviv Universitetinin israilli professoru Ariel Merari 50-dən artıq canlı bomba barədə sosial araşdırma aparıb. Araşdırmada nə ortaq bir xarakter, nə də patoloji bir şəxsiyyət özəlliyi üzə çıxarılıb. Amma bütün bu qətillərdə ən önəmli oxşarlıq onların heç diqqət cəlb etməmələri olub.

Terror təşkilatları qeyri-müsəlman ölkələrindən qurbanları seçərkən dindən daha çox xarakter cəhətlərə önəm verirlər. Belə ki, onlar daha çox sentimental, spontan qərarlar verməyi sevən, təsir altına düşən tiplərə üstünlük verirlər. Bundan başqa, onların cəmiyyətdə özlərinə yer tapa bilməyən tiplər olması arzuediləndir. Aksiyaçıların içində özünü fəda etmə, bir qəhrəman olma duyğusu ön plana çıxa bilir. Bundan başqa, ciddi şəkildə sosial təzyiqi də yaddan çıxarmaq olmaz. Təzyiqin ana xətti aşağıdakı kimidir: "Bunu həyata keçirmədiyin zaman qrupun içində hörmət görən bir insan kimi yaşama şansın yoxdur".

Terror aksiyasından öncə canlı bombaların motivasiya olmaları üçün narsist yaralarını deşirlər, varlıqlarının təhlükə altında olduğu təkrar-təkrar vurğulanır. Bununla da daxillərində şiddətli bir hücumçu potensialı yaradılır. Sözügedən şəxslərin şüuraltına isə bu fikir yeridilir: "Sən bu aksiyanı həyata keçirməsən, burada da insan kimi hörmət görməyəcəksən. Amma bunu həyata keçirsən, həm qrup adına hərəkət edirsən, həm də özünü qəhrəman kimi tarixə salacaqsan".

Amma bu da faktdır ki, Amerika özünün bəslədiyi ilan tərəfindən sancılır. Bundan bir il öncə 19 yaşlı xristian terrorist Nikolas Kruz Florida ştatında yerləşən Marjory Stoneman Douglas Liseyinə hücum etmişdi. AR-15 tipli ağır makinalı tüfənglə hücumu gerçəkləşdirən xristian terrorist 17 nəfəri amansızlıqla qətlə yetirib, 50-dən artıq insanı yaralayıb. Amerika və Avropa mediası sözügedən hücumu terror olaraq qiymətləndrmədi. Qərb mediası artıq neçənci dəfədir ki, bu sayaq məsələlərdə "ikili standart"larla davranır. Dünyada hər 5 hüquq müdafiə təşkilatından biri Amerikada xristian terroristlərin əliylə gerçəkləşdirilib. Amerikada bir ildə silahlı hücumlar nəticəsində 33 min nəfər ölüb.

### Müsəlmana "terrorist", xristiana "dəli"

Dünyanın hər yerində gerçəkləşən hücumları müsəlmanlarla əlaqələndirən, "islami terror" iftirasını səsləndirən Amerika prezidenti Tramp öz ölkəsində xristian terroristlərin əliylə gerçəkləşən qanlı hücumları isə "dəli aksiyaları" olaraq qiymətləndirib. Məsələn, Amerika prezidenti bir il öncəki Florida hücumçuları ilə bağlı "onların əqli sağlamlığının yerində olmadığına dair bir çox işarə vardı" demişdi.

Ondan öncə Las Veqasda bir konsertdə təşkil olunan terror hücumunda 58 nəfər ölmüş, 500 nəfər yaralanmışdı. Hücumu 64 yaşındakı Stefan Paddok adlı xristian terrorist öz üzərinə götürmüşdü. Noyabr ayında isə Texasdakı bir kilsəyə hücum edən xristian terrorist Kriz Vard 27 nəfəri qətl etmişdi. Yenə eyni ayda Manhattan bölgəsində velosiped yolundakı piyadalar üzərinə atəş açılmış, 8 nəfər həyatını itirmişdi. ABŞ rəhbərliyi bu hücumu "Yalnız qurd" hücumu adlandırıb məsələni qapatdı.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# YENİ MÜSAVAT

Son səhifə

N 61 (7231) 18 mart 2019




## Bir uşağın ölümü beş uşaq yaşatdı

**Böyük Britaniyada valideynlər dünyasını dəyişən qızlarının daxili orqanlarını bağışlayaraq, beş uşağın həyatını xilas ediblər. Bu barədə "The Mirror" nəşri xəbər verib. Ella Tatçer adlı uşaq Qərbi Susseks qraflığında yaşayırdı və uşaq epilepsiyasının nadir növü olan Drav sindromundan əziyyət çəkirdi. On yaşlı qızın valideynləri onun sağalacağına olan ümidlərini itirmişdilər və vaxt keçdikcə onun vəziyyəti yaxşılaşmırdı.**

2018-ci ildə Ella kəskin epilepsiya tutması ilə xəstəxanaya düşür və müəyyən müddət nəfəs ala bilmir. Həkimlər müvəqqəti də olsa onun vəziyyətini yaxşılaşdırıblar və uşaq xəstəxanasına çatdırıblar. "Ellanı müayinə etdilər, daha sonra isə məni daha sakit bir yerdə danışmağa dəvət etdilər. Mən dərhal nəyinsə qaydasında olmadığını hiss etdim". Bunu uşağın anası Anna deyir. Onun sözlərinə görə, həkimlər ona Ellanın beyninin və bütün orqanlarının öldüyünü bildiriblər.

Ellanı süni tənəffüs aparatından ayıranda onun valideynləri otaqda olublar. "Biz başa düşəndə ki, ona heç nə ilə kömək edə bilməyəcəyik, orqan donorluğu barədə düşündük. Bunu da Anna danışır. İndi Ellanın sayəsində beş ailə dəfn mərasimi barədə düşünməyə bilər".

Mərhumun anası müvafiq situasiyada olan ailələri digər pasientlərə yardım etməyə çağırıb. "Bu, bizim uşağımızı geri qaytarmayacaq. Amma onun kiminsə həyatını xilas etməsi insana yüngüllük gətirir". Bunu da qadın deyib.

## Adı sərgidir, amma orada manekenlər çimirlər

**İngiltərədə açılan bir sərgi orijinallığı ilə diqqət çəkir. Belə ki, ziyarətçilər divarlarda açılan deşiklərdən çimən manekenləri canlı olaraq izləyirlər.**



Mükafat almış sənətçi Mark Vallinger imzalı sərgi 16-cı əsrdə yaşamış məşhur rəssam Titianın tablolarından təsirlənib. "Diana" adlı yeni layihəsi üçün Tvitter vasitəsilə elan verdiyini və 6 manekeni işə götürdüyünü deyən Vallinger modellərin 2 saatdan bir yer dəyişdirdiyini söyləyib. Modellərin hamısına layihədə eyni ad verilib: "Yunan mifologiyasından gələn tanrı Diana əfsanəsində yer alan hamam səhnəsini günümüzə uyğunlaşdırmaq istədim və ortaya belə bir iş çıxdı".

## 6 dəqiqə idman et, pulsuz nahar qazan

**David Lloyd Clubs fitnes klub şəbəkəsi Londonda yeni kafe açıb. Bu kafedə müştərilər hesabı idman hərəkətləri etməklə ödəyə bilirlər. Lenta.ru saytı yazır ki, müəssisədə pulsuz lanç qazanmaq o qədər də çətin deyil. Bunun üçün 6 dəqiqəlik yüksək intensivlikli proqramı həyata keçirmək lazımdır. Ona bir çox çətin idman hərəkətləri daxildir. Yüksək enerji tələb edən bu idman hərəkətlərinə görə müştərilər tərəvəzli pitsa, eləcə də yağda qızardılmış pendir verilir. Bundan başqa, onlara qoz, meyvə kimi təamlar da təqdim olunur. Yeni kafe "British Heart Foundation" adlı xeyriyyə təşkilatını da maliyyələşdirəcək. Sözügedən məkan 11-13 aprel tarixlərində saat 12:00-dən 15:00-ə qədər açıq olacaq.**

David Lloyd Clubs təsisçiləri müasir insanların həyat tərzində dəyişikliyi vacib hesab ediblər. Çünki insanlar günlərinin 90 faizini ofislərdə, oturaq iş sistemində keçirirlər. Hesablamalara görə, orta iş günü 8 saat, ildə isə 1576 saat (təxminən 65 gün) təşkil edir. Bundan başqa, respondentlərin üçdə biri boynuna alıb ki, yeməyi də monitor arxasında yeməyə üstünlük verirlər.



## Qadının ombası böyükdürsə, o, digərlərindən daha ağıllıdır

**İngiltərə mətbuatının yazdığına görə, qadınların fiziki görüntüsü ilə onun ağlı arasında əlaqə araşdırılıb. Araşdırma nəticəsində böyük ombaya malik olan və sellülitli qadınların digərlərilə müqayisədə daha ağıllı olduğu üzə çıxıb. Alimlər bildirir ki, qadının ayaqlarında, qarnında və yanında daha çox piyin olması beyinə müsbət təsir göstərir. Bununla da onlar xüsusilə seksdə daha ağıllı olurlar.**

Mütəxəssislər 95% qadında rast gəlinən sellülitə mənfi yanaşmanın düzgün olmadığı qənaətindədirlər: "Bu, problem kimi şişirdilib. Amma əslində sellülitin yaranması normal və təbii prosesdir. Sellülit həmişə olub və heç kim onu problem saymayıb. İndi isə bu, reklam hoqqabazlığının obyektinə çevrilib. Sellülit böyük bir sənayeyə işləməyə başlayıb".




**QOÇ** - Bayram ovqatlı gün olduğunu nəzərə alan ulduzlar günün əsas saatlarını istirahətə həsr etməyinizi məsləhət görür. Çox da uzaqda yerləşməyən ünvanlara qonaq getməyə də dəyər.

**BUĞA** - Uzaq səfərə çıxmaq bu gün yalnız sizin bürcdən olanlar üçün müvəffəqiyyətlidir. Bununla yanaşı, maliyyə məsələlərinin həllində və fəaliyyətdə də müəyyən irəliləyişlərə nail ola bilərsiniz.

**ƏKİZLƏR** - Yeni əlaqələr yaratmaq üçün bütün gücünüzü axtarışlara həsr etməlisiniz. Bu gün sizə daha əzmkarlıq göstərmək məsləhətdir. Nahardan sonra varlanma ehtimalınız var.

**XƏRÇƏNG** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimdə ciddi məbləğdə borc verməyəsiniz. Əks təqdirdə həftə boyu problemləriniz səngiməyəcək. Axşama yaxın sevindirici xəbər eşidəcəksiniz.

**ŞİR** - Hər mənada uğurlu vaxtdır. Həm ailə-sevgi münasibətlərində, həm də məqsədlərə yetişmək istiqamətində uğurlarınız artacaq. Özünüzə güvənməklə çox zirvələri fəth edəcəksiniz.

**QIZ** - Böyük dəyişikliklər astanasındasınız. Daxili süstlüyünüz də səngiməkdədir. Elə addımlar atın ki, qarşınızda duran şanslardan bəhrələnəsiniz. Sevgidə də uğurlarınız labüddür.

**TƏRƏZİ** - İş yerində həmkarlarınızla mübahisələriniz gözlənilir. Bunu nəzərə alıb təmkin göstərin. Ən azı ona görə ki, əsəbləriniz qaydasında deyil. Sevginizə xələl gətirən hərəkətlərə son qoyun.

**ƏQRƏB** - Novruz Bayramına qədər görəcəyiniz işləri yaxşı-yaxşı planlaşdırın. Çünki bu təqvimdə başınıza yeni ideyalar gələcək. Bununla yanaşı, səhhətinizi qorumağı da unutmamalısınız.

**OXATAN** - Ümumi əhvalınızda yaranmış passivlik aradan qalxacaq. Odur ki, işlə bağlı planlarınızın həllini sürətləndirin ki, uğurlara yetişəsiniz. Yersiz mübahisələrdən əl çəkin, barışdırıcı olun.

**OĞLAQ** - Saat 14-ə qədər münaqişəli situasiyalara cəlb olunma ehtimalınız yarandığından həmin müddəti yalnız ev şəraitində keçirməlisiniz. Sonrakı ərəfəni isə xoş ovqatda başa vuracaqsınız.

**SUTÖKƏN** - Bütün vaxtınızı görüş və əyləncələrə həsr etsəniz, bu təqvimdən xeyli razı qalacaqsınız. İştirak etdiyiniz məkanlarda çalışın ki, daha çox sevdiyiniz adamlarla birgə olasınız.

**BALIQLAR** - Əsasən sənədləşdirmə və alış-veriş işi üçün uğurlarınız ola bilər. Saat 14-16 arası isə qazanc əldə etmək imkanınız yaranacaq. Şəxsi münasibətlərdə gərginliyə səbəb olmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ata olan kişilər depressiyaya düşür

**Rusiya mətbuatının yazdığına görə, araşdırmalar hər 5 kişidən birinin ata olduqdan sonra depressiyaya düşdüyünü sübut edib. Belə ki, üzərində müşahidə aparılan ataların 21 faizi övladlarının 12 yaşa çatana qədər mütəmadi olaraq depressiyadan əziyyət çəkirlər.**



Araşdırmalar zamanı 87 min ailə üzərində müşahidə aparılıb. 1993-2007-ci illərdə həkimə müraciət edən gənc ataların beşdə birinin depressiya əleyhinə müalicə olunduğu məlum olub. Maraqlı məqam isə odur ki, körpələri dünyaya gələrkən gənc ataların cəmi 3%-i ruh düşkünlüyü yaşayır. Lakin zaman keçdikcə bu göstərici artır. Belə ki, övladı 4 yaşında olan ataların 10%-i, 8 yaşında olanların 16%-i, 12 yaşında olanların isə 21%-i depressiyadan əziyyət çəkir.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.755

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.